Sübhan Abasbəyli

# Danışan illər

Bakı - 2025

Redaktor: **Nəcibə İlkin,**
*Şair-publisist, yazıçı, AYB-nin,*
*AJB-nin üzvü, Prezident mükafatçısı.*
*"Azad Qələm" jurnalının baş redaktoru*

***Sübhan Abasbəyli, «Danışan illər»***
***Bakı, «İmza» nəşrlər evi, 2025, 176 səh.***

*Çağdaş Azərbaycan ədəbiyyatında özünəməxsus dəsti-xətti olan Sübhan Abasbəylinin şeirlərində vətənpərvərlik ruhu çox güclüdür. Onun şeirlərində vətənin başına gətirilən faciələr, tariximizin qan yaddaşı xüsusi yer tutur. Bu baxımdan şairin vətənpərvər ruhu, vətənə sevgisi danılmazdır. Əsl həqiqət odur ki, Sübhan Abasbəyli xarici ölkədə yaşayaraq vətən ağrılarını istər kitabda, istər üzv olduğu Diaspor təşkilatlarının yaddaşına həkk edə bilib.*

*Sübhan Əhədzadə Kamran oğlu, təxəllüsü Abasbəyli, Masallı rayonunun Abasbəyli kəndində anadan olmuşdur. Orta təhsilini Yeyənkənd, sonra isə Ərkivan kənd orta məktəbində almışdır. 1976-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (Universitet) tarix-ictimaiyyat fakültəsini, eyni zamanda Moskva Marksizim-Leninizm İnistitutunun iki illik mühaziraçi-təbliğatçı şöbəsinin Bakı flialını bitirmişdir. Masallı,lerik rayonlarında müəllim, təlim-tərbiyə işləri üzrə direktor müavini, məktəb direktoru vəzifələrində işləmişdir.*

*1995-ci ildən Tatarstan Respublikasının Kazan şəhərində yaşayır. 2007-ci ildən Tatarstanda Azərbaycan Milli-Mədəni Muxtariyyatın təftiş-nəzarət komissiyasının sədri, idarə heyyət üzvü, 2012-ci il dekabrından 2017-ci qədər Reqional İctimai təşkilatı AMMM-ın sədri işləmişdir. Azərbaycan Yazıçılar Birliyinin, Jurnalistlər birliyinin üzvüdür, "Qızıl Qələm" Media mükafatı laureatıdır və bir çox fəxri diplomlarla təltif olunmuşdur. "Axırıncı güllə", "Peyğəmbərlər", "Ana Fəryadı", "Ürəyimin harayı", "Азербайджанцы В Тамарстане" kitablarının müəllifidir. Ailəlidir. "Axırıncı güllə" və "Peyğəmbərlər" kitabları ikinci dəfə nəşr olunmuşdur. "Danışan illər" müəllifin sayca 6-cı kitabıdır.*

**ISBN 978-9952-37-226-7**
*©S.Abasbəyli*, **2025**

## Vətən sevdalı şair

Harada yaşamasından asılı olmayaraq insanın vətənə, ana yurda, torpağa bağlılığı onunla birgə yaşayır, birgə ömür sürür. Və bu ömrün içərisində o, gözlərindəki vətən həsrətini, qəlbindəki vətən sevgisini duyğuları ilə dilə gətirir və sözün ahəngində onu ruhunun rahatlığına çevirir. Bu mənada qəribliyin həsrət ümmanı sözün burulğanında fəryad etməklə, haqqın-ədalətin harayına dönür. Bu haray vətən sədasıdır, bu haray haqsızlığa qarşı mübarizə səsidir. Vətən torpağının yad ayaqlar altında inildəməsinə ucalan səsdir.

Məhz bu dediklərim, haqqında yazacağım vətən sevdalı şairimiz Sübhan Abasbəyinin ünvanına yönəldilmiş fikirlərimin başlanğıcıdır.

Sübhan Abasbəylinin yaradıcılığına çoxdan və yaxından bələdəm. Bir neçə il bundan öncə dəqiq yadımda deyil, kitabının ya redaktoru, ya da ön söz müəllifi idim, unutmuşam. Hələ torpaqlarımız işğalda olan zaman onun vətən həsrətini, vətən dərdlərini necə nəzmə çəkdiyini oxumuşdum. Tariximizin dərin qatlarına baş vuran şair vətən bəlalarımızdan, faciələrimzdən söz açmaqla qəriblikdə yaşadığı yerlərə də onları çatdırmağı özünə bir vətəndaş borcu bilmişdir.

Sübhan müəllim uzun müddətdir ki, Rusiyanın Kazan şəhərində yaşamasına baxmayaraq qəlbi, ruhu vətənlə döyünən, vətənlə səsləşən şairlərimizdəndir. Onun sayı-hesabı bilinməyən vətən şeirlərini və bu şeirlərdə vətən ağrılarını duymaq o qədər çətin deyil. Əsl vətəndaş vətəninin tarixini bilməli və onun qan yaddaşını, başına gətirilən bəlaları, əsrlərin faciəsini unutmamalıdır. Bu baxımdan Sü-

bhan Abasbəyli Çar Rusiyasından üzü bəri Pusiya İmperiyasının erməni vandalların əliylə başımıza gətirdikləri müsibətlərin, faciələrin qurbanına çevirdikləri müsəlman türklərinin qanlı tarixini şeirlərində dönə-dönə yaşatmış və kitabların yaddaşına həkk etmişdir. Bu, özü də bir qəhrəmanlıqdır. Əslində qəhrəmanlarla qələm sahibləri eyni qəbildəndir. Biri ön cəbhədə döyüşüb tarix yazır, o birisi isə onları tarixin yaddaşına köçürür.

Bəli, Sübhan Abasbəyli tariximizin qanlı keçmişimizi əsərlərində nəzmə çəkməklə gələcəyə çox şeyləri çatdırır:

***Borçalı, həm Dərbənd, Göyçə, İrəvan,***
***Şərur, Drələyəz, Zəngəzur, Dilcan,***
***Vətən torpağından ayrı salındı,***
***Millət pərən düşdü, mülkü çalındı.***

Şair bu bənddə 1744-cü ildə Nadir şahın fərmanı ilə Borçalı Qazax mahalı ilə birlikdə Gəncə bəyləbəyliyindən alınaraq Gürcüstanın Kartli-Kaxetiya krallığının tabeçiliyinə verilməsini, 1922-ci ildə İrəvanın-Qərbi Azərbaycanın Göyçə və Dilican əraziləri, 1923-cü ildə Naxçıvanın 9 kəndi, 1929-cu ildə Mehri və digər ərazilərimizin Ermənistan tərəfindən müxtəli adlar altında zəbt edilməsinə eyham vurur. O cümlədən 1722- ci ildə Rusiya çarlığı tərəfindən Dərbənd şəhərinin ələ keçirilməsini, 1930-ci ildə Zəngəzuru təzyiq altında Ermənistana verilməsini nəzərimizə çatdırır. Azərbaycanın İrəvan, Təbriz, Dərbənd, Borçalı və s. kimi işğal olunmuş torpaqlarını tarixin yaddaşına gətirir.

Məhz Sübhan müəllim bir şair kimi, bir tarixçi kimi tariximizin qanlı keçmişini gələcək nəslə belə çatdırmaqla özünün əsl vətəndaş mövqeyini ortaya qoyur. Sonda Ali

Baş Komandanımızın rəhbərliyi altında Şanlı Ordumuzun Qarabağ tarixinin qələbə əzmini yaşamasını xüsusi qeyd edir və bununla demək istəyir ki, Bütöv Azərbaycan olmağımıza az bir zaman qalıb.

Sübhan Abasbəyli çox vətənpərvər şairdir. Onun bütün şeirlərində vətən qoxusu var, vətən ətri var. Diqqətimi çəkən "Diaspor" adlı poemasındakı özünün obrazlaşmış surətini yaratmaqla, Rusiyanın Kazan şəhərində Azərbaycan doasporundakı fəaliyyətindən bəhs etməsi oldu. Nə qədər çətin olsa da müəllif, orda yaşayan azərbaycanlılarla birgə erməni vandallarının rus əlaltıları ilə azərbaycan türklərinə etdiyi vəhşi soyqırımı "Xocalı" faciəsini tanıtmaq üçün planlar həyata keçirir, ermənilərin vəhşi simasını  özlərinə, onların havadarları olan ruslara, uzun illərdi orda yaşayan azərbaycanlılara  göstərmək üçün çox planlar həyata keçirirlər. Lakin hər vəchlə bu planları pozmaq, onların törətdiyi bu misligörünməmiş faciəni  film şəklində göstərilməzinin qarşıısını almaq istəyən ermənilərin layiqli cavabı verilir və "Xocalı" faciəsinin film şəklində nümayiş etdirilməsinə nail olurlar. Beləliklə,  Diaspor sədri Tararıstanın Prezident aparatına qədər gedir və nəhayət "Xocalı faktlarla" adlı sənədli filmin Kazanda "Mir" kinoteatrdında göstərilməsinə icazə verilir.

Bundan başqa Diaspora tərəfindən atasız-anasız uşaqlara yardım göstərilməsi və ordakı azərbaycanlıların bu işdə fəal işitirakı poemada geniş yer alıb. Düşmənlərin içində düşmənlə üz-üzə olmaq, onların kim olduğunu, törətdikləri vəhşi cinayəti  özlərinə, dünya ictimaiyyətinə göstərmək özü ən böyük fədakarlıqdır.

Bundan başqa Sübhan müəllimin şeirlərində haqsızlığa qarşı mübarizə, ibrətamiz nəsihətlər, elmin, ictimaiyyətin

yolunda doğru və dürüst olmaq, Allaha sığınaraq ədalətli olmaq prinsipləri var. Onun yazdığı hekayətlər "Canavar və keçi", "Tacir və dəvə", "Ölüm hökmü və loğmanın zəhəri", "O, onu seçdi", "Vəzirlə çobanın hekayəti", adlı şeirlərdə bir həyat məktəbi, bir insanlıq elmi var.

Bu baxımdan Sübhan Abasbəyinin istər dünyəvi, istər adi lirik şeirlərində müraciət etdiyi mövzuları keçmişimizin, bu günümüzün ağrıları ilə bərabər gələcəyimizin və gənclərimizin yaxşı mənada həyata baxışını dəyişir, onların vətənpərvər ruhda böyüməsinə zəmin yaradır.

Şairin "Qalib Bayrağım" adlı şeirində qürurverici, vətənsevgili duyğuları dilə gəlir. Vətən şəhidlrərimizin, Milli Ordumuzun qəhrəmanlıqları misra-misra dalğalanır.

***Ay ellər, bir dönün tarixə baxın!***
***"Gülüstan" sülhünə, keçmişə axın!***
***Qələbə bayrağın sinəyə taxın,***
***"Hay"a məzar qazdı indi, Ordumuz!***
***Düşmən bayrağını yendi, Ordumuz!***

***Ey Şəhid ruhları, qalxın ayağa!***
***Qanınız tökülən, o Qarabağa!***
***Baxın Xan elində üçrəng bayrağa!***
***Ağ bayraq qaldırdı, o mənfur yağı!***
***Yeni tarix yazdı Vətən bayrağı!***

Allah şəhidlərimizə rəhmət eləsin. Allah Milli Ordumuzu qorusun!!! Şəhidlərimizin qanı tökülən yerdə Bayrağımız ucalırsa, bu bizim şərəf və ləyaqətimizin ucalığı deməkdir. Var Olsun Vətənimiz!

Oxucuların nəzərində bir tarixçi müəllim və bir vətənpərvər, vətənsevər şair kimi qalan Sübhan Abasbəyli Azərbaycan-Kazan körpüsündən keçirdiyi söz dolu boxçası ilə hər dəfə bizləri sevidirib, könlümüzü şad edib. Məhz bu mənada asan dildə oxunan şeirləri ilə bu dəfə oxucu görüşünə gələn şairimizə uğurlar diləyir və qələbə soraqlı bu kitabını təbrik edirəm.

***Nəcibə İlkin***
*Şair-publisist, yazıçı, AYB-nin,*
*AJB-nin üzvü, Prezident mükafatçısı.*
*"Azad Qələm" jurnalının baş redaktoru*



# Payız duyğulu şair

Şair ömrü söz qapısıdır. O qapı fəsil-fəsil, zaman-zaman həyatın üzünə açılır. Bu duyğularla şair dostum Sübhan Abasbəilinin poetik dünyası ilə oxucuları tanış edirəm.

O, 1954-cü ildə Masallı rayonunun Abasbəyli kəndində dünyaya göz açıb. Orta məktəbi başa vurduqdan sonra, 1976-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun ta-rix-içtimaiyyət fakultəsini, sonra Moskva Marksizm-Leninizm İnstitutunun 2 illik mühazirəçi-təbliğatçı şöbəsinin Bakı filialını bitirmişdir. Sübhan müəllim tələbəlik illərindən şeirə böyük maraq göstərərək, şeirlər yazmışdır. Bir müddət Lerik rayonunda müəllim, sonra isə irəli çəkilərək Masallı rayonunun Yeyenkənd məktəbində direktor müavini daha sonra isə Züvandlı məktənində direktor vəzifəsində işləmişdir.

1995-ci ildən Tatarıstanın Muxtar Respublikasının Kazan şəhərinə köçür və uzun illər burada müxtəlif vəzifələrdə çalışır. 2007-ci ildən Tatarıstanda Azərbaycan Milli-Mədəni Muxtariyyatında komisiya sədri, 2012-ci ildən 2017-ci ilə qədər Tatarıstan regional İçtimai Təşkilatı Azərbaycan Milli-Mədəni Muxtariyyətinin sədri işləmişdir.

Sübhan Abasbəyli diaspora rəhbərlik etdiyi müddətdə Azərbaycan Diasporası Tatarıstanda ən yaxşı pilləyə yüksəlmişdir.

Sübhan müəllim bir neçə kitabın müəllifi, Azərbaycan Yazıçılar Birliynin üzvü və ,,Qızıl Qələm,, Media Mükafatı Laureatıdır.

Poetik istedadının mayasını öz doğma torpağından götürüb. Tərəddüd etmədən demək olar ki, şair həyatını, özünü yazır. Bu fi kir onun şeirlərindən boylanır. Uzun il-

lər ədəbi-bədii yaradıcılıqla məşğul olan qələm dostumun hər bir kitabı müəllifin duyğu və düşüncələrinin ədəbi müstəvidə lirikasıdır. Ən başlıca və diqqətçəkən məziyyət odur ki, bircə şeirlə də müəllifin poetik gücünü, iqtidarını görmək mümkündür. “O, onu seçdi” şeirində müəllif toplanmış poetik nümunələr yetkin şair düşüncəsinin sənət müstəvisində əyaniləşməsidir.

***Olmuş bir əhvalat danışım sizə,***
***Gül kimi yayılsın ürəyinizə.***

***Qırx dörd günlük döyüş gətirdi zəfər,***
***Yaralı əsgərim yeddi min nəfər.***
***Üç min şəhid verdik, ürəyim al-qan,***
***Vahid, bütöv oldu can Azərbaycan.***
***Şuşam azad oldu, Qarabag tacı,***
***„Hay„-ların kəsildi söndü əlacı.***
***İkiyüz illik „Mif„ dağıldı soldu,***
***Onların qəlbinə od-alov doldu.***

Şair Qarabağda döyüşən igidlərimizin qəhrəmanlığını, onların yeni tarix yazdığını poetik və bədii təsvirlərlə vermişdir. Onun önəmli xüsusiyyəti onun poeziyasının səmimiyyəti və dolğunluğudur. Şairin müxtəlif mövzularda yızılan şeirləri vətənpərvərlik, həyat hadisələrinə fəlsəfi baxış, valideyn-övlad məhəbbəti, xeyirxahlıq duyğularının təbliği, saf sevgi kimi amillər birləşdirir. Vətənpərvərlik ruhunun poetik məzmunu bu misralardan boylanır. Şəhidlərin xatirəsinə həsr olunmuş şeirin bir bəndinə diqqət edək:

*Vətən sevgisindən bir məbəd qurdun,*
*Vətən Dur-deyəndə ayağa durdun.*
*Düşmənin boynunu sındırıb burdun,*
*Cənnət çiçəyindən birisən, Şəhid!*
*Sən də, bir mələksən, dirisən, Şəhid!*

və digər qələbə ruhlu  Qəhrəman Şuşa şeirində şəhidlərin qəhrəmanlığı haqqında şair belə yazır.

Sən ey tarix yazan qəhrəman əsgər, Vuruş meydanında göstərdin hünər. Xalqın dar günündə qeyrətli bir ər Bu gün azad etdin qurtuldu Şuşan, Gözün aydın olsun can Azərbaycan.

Azərbaycan poeziyasının ənənəvi mövzularından biri də  şəhid analarına aid şeirlərdir. Poeziyamızda bu mövzuda çoxlu bədii nümunələr mövcuddur. Şair bu mövzuya özünəməxsus poetik çalarlar əlavə edə bilmişdir. Şairin şəhid analarına ünvanladığı səmimi duyğular oxucuların qəlbini kövrəldib göynədir.

Poetik nümunələr kövrəkliyi, ahəndarlığı və səmimi ifadəsi ilə oxucunu da təsirləndirir. Bütün bu məziyyətlər onun sözə məsuliyyətlə yanaşmasının nəticəsi olmaqla bərabər, həm də sənətə yiyələnməsinə zəmanət verir. O, dilimizin zəngin və rəngarəng təhkiyələrindən, bədii təsvir və ifadə vasitələrindən bacarıqla istifadə edərək, qələmə aldığı mövzuların bədii həllini, poetik ümumiləşdirməsini özünəməxsus ovqatda təqdim edə bilir.

Şairin lirikasında həsrət və qəm motivlərinin gərəksiz pafos heç vaxt duyulmur. Onun bütün şeirlərində həzin, kövrək bir ürəyin döyüntüləri duyulur və oxucunu təsirləndirir:

Bu poetik nümunələri mövzusundan asılı olmayaraq daxili bir bədii məntiq, ümumi bir məna birləşdirir. Şairin şeirlərində insana inam və etibar motivi güclü olduğu üçün, bu məziyyət şeirlərinin bədii siqlətinə nikbin əhvali-ruhiyyə, işıq və hərarət qatır.

*Bir də, o yerlərə qayıda bilsəm,*
*Ən gözəl şeirimi sizə yazardım.*
*Dostlar ilə gəzib çölü, çəməni,*
*Xınalı, ceyranlı düzə yazardım.*

*Sübhan Abasbəyli, yenə yay ola,*
*Alıb yol çantanı çıxaydın yola,*
*Allahdan ürəyə xoşbəxtlik dola,*
*Bədahətən deyib üzə yazardım.*
*Həyatı sevdirən gözə yazardım.*

Poetik yükündən bədii mahiyyətindən asılı olmayaraq, onun bütün şeirlərindən Vətən ətri gəlir, nəciblik, məhəbbət, halallıq qoxusu duyulur. Bu şeirlərdə insanın insanlar qarşısında, bəşəriyyət qarşısında insanlıq borcunun və ləyaqətinin vicdanla, ədalətlə, namusla icrası məsələsinə böyük diqqət verilir. Bu xüsusiyyətlər onun şeirlərinə ictimai dərinlik, geniş vüsət və məzmun bütövlüyü gətirir. Şair bəzən bir bənddə lakonik poetik detallarla oxucu xəyalında orijinal lövhələr canlandıra bilir:

*Yaxşılıq edəndə umma təmənna,*
*Yardım etdiyini çalış tez unut.*
*Bir əlin verdiyin bir əl bilməsin.*
*Ağlayan gözləri sevindir, ovut.*

Sübhan müəllimin şeirləri həyatın poeziyasıdır, onun şeirləri öz şirəsini, mayasını təbiətdən, doğma torpaqdan,-halal insanlardan alır. Poeziyada hər bir şairin şeirinin öz rəngi var və bu rəng onu bir şair kimi başqalarından fərqləndirir. Onun poeziyası da qoynunda boy atdığı təbiət rəngindədir. Təbiətin minbir palitrası onun sözünə, poeziyasına çöküb. Heç təsadüfi deyil ki, onun şeirlərində həyatın məntiqi ilə poetik məntiq birləşə bilir; həyat həqiqəti estetik həqiqətə çevrilir. Əslində, yaradıcılıq budur! Bu keyfi yyətlər onun həm insan, həm də şair ömrünün şərəfli yollarına işıq salır.

Şairin ,,Ünvanına yetməyən məktub,, şeirini həyacansız oxumaq olmur, oxucunu sehirləyib göz yaşına qərq edir.

***Gözlərim önündə gəlib durursan***
***Baxırsan üzümə gözüm ağlayır.***
***Səssiz danışırsan duyulmur səsin***
***Duruşun, baxışın ürək dağlayır.***

Öz oxucusu ilə daha çox könül dilində-səmimiyyət dilində danışır. Şeirlərinin hər biri həyat hadisələrinə söykənir. Bir çox məqamlarda fəlsəfi məzmunlu fikirlərini də çatdırmağı unutmur və payız şeirində ömrünü payıza bənzədir.

***Yenə payız gəlir turşudur üzün,***
***Küsəyən uşaqtək qaşqabaq tökür.***
***Göy üzü tutulur, bulud ağlayır,***
***Külək fəqan edir, dağıdır sökür.***

***Sübhan, dünya əzəl qurulub belə,***
***İnsan da, köç edir ellərdən-elə.***
***Yağış leysan tökür, qarışır selə,***
***Su ilə bol olur dəniz, Araz, Kür,***
***Gəlir damcı-damcı torpağa çökür.***

Çağdaş ədəbi prosesdə imzası ilə seçilən, poetik və kövrək duyğulu istedadlı şair dostum Sübhan müəllimə can sağlığı və yaradıcılıq uğurları arzulayıram.

**Şair Əli Yusif,**
*AYB, AJB-in üzvü,*
*Şair-publisist*



## Qalib bayrağım

Eşitsin insanlar, eşitsin dünya,
Köləlik zəncirin qırdı yurdumuz.
Bütöv Qarabağa gəldi bayrağım,
Bu gün yeni tarix yazdı Ordumuz!
“Hay”-lara məzarı qazdı Ordumuz!

İki yüz il yanan, od- alov söndü,
Xalqımın vüqarı özünə döndü,
“Muxtar vilayət”-i arxivə gömdü,
Gavurdan intiqam aldı Ordumuz!
Dəmir zindanlara saldı Ordumuz!

Ay ellər, bir dönün, tarixə baxın!
Gülüstan sülhünə, keçmişə axın!
Qələbə bayrağın sinəyə taxın!
“Hay”-a məzar qazdı indi Ordumuz!
Düşmən bayrağını yendi Ordumuz!

Ey Şəhid ruhları, qalxın ayağa!
Qanınız tökülən, o Qarabağa!
Baxın Xan elində üçrəng bayrağa!
Ağ bayrağ qaldırdı, o mənfur yağı!
Yeni tarıx yazdı, Vətən bayrağı!

Siz ey Qazilərim, eşq olsun sizə!
Gəzdin Qarabağı, gəzdin diz-dizə.
Ölümlə qaldınız hər an üz-üzə,
Sarsılmaz qayatək keşikdə durdun,
Haqqın məhkəməsin Bakıda qurdun.

Ali Baş Komandan, gözümüz aydın!
Qələbə günlərin özlədin, saydın!
Tarixə yazıldı müzəffər adın!
Köləlik zəncirin qırdı, yurdumuz!
Yeni tarix yazdı şanlı, Ordumuz!

## Şanlı ordumuz

Ürəkdə qovrulduq biz, ikiyüz il,
Gözlər ana yurda dikilib qaldı.
Nəsillər ha köçdü, illər dəyişdi,
Xalqımı ağır dərd möhnətə saldı.

Vətən torpağında Vətənsiz qaldıq,
Neçə yol "Soyqırım" törətdi yağı.
Qanlı yaş axıtdıq, solduq, saraldıq,
Sinədə dağ oldu bir Vətən dağı.

Borçalı həm Dərbənd, Göyçə, İrəvan,*
Şərur, Dərələyəz, Zəngəzur, Dilcan,*
Vətən torpağından ayrı salındı,
Millət pərən düşdü, mülkü çalındı.

İrandan köç etdi yüz minlərlə "hay",
Qovuldu evindən zorla millətim.
Qərbi Azərbaycan, Qarabağ doldu,
Ah- nalə yüksəldi, artdı zillətim.

Köçdü Vətənimə, pusquda durdu,
Tutdu Qarabağı, tutdu çox asan.
Əfi ilan kimi arxadan vurdu,
Didərgin salındı bir milyon insan.

İki min iyirmi, bir payız günü,
"Qarabağ"-hayqırdı, şanlı Ordumuz.
Qırxdörd günlük döyüş gətirdi zəfər,
Bir-bir azad oldu Vətən yurdumuz.

Yenə də, bu payız "hay"-lar qızışdı,
Səngərlər yenə də, oldu qan gölü.
İnsanlıq səddini hürərək aşdı.
Yenə fəryad etdi Qarabağ çölü.

Müzəffər Ordumuz keçdi hücuma,
Şəhidlik şərbətin inamla içdi,
Dağlardan dağlara hey cuma-cuma,
Səngərdə düşmənin kökünü biçdi.

Ali Baş Komandan, eşq olsun sənə,
Xalqın qürurunu ucaltdın dağa,
Getdin sona qədər mərdi-mərdanə.
Əyilmiş belimiz qalxdı ayağa!

---

**Tarixi unutmayaq.**
**-Borçalı-1744 Nadir şah tərəfindən Gəncə bəylərbəy-n alınıb Gürcüs.(Kaxetiya)ver.*
**-Dilican,*
**-İrəvan 1918-29 may ermənıyə güzəşt edilir.(təzyiq altında)*
**-Dərbənd 1722-1 Pyotur.*
**-1920-ci il 30 noyabr Zəngəzur AK(b)P MK-qərarı ilə ermənyə güzəşt ed.(Təzyiq altında)*

## Ey şanlı ordum

Nə qədər yazılsa şəninə əsər,
Yenə azlıq edər, ey şanlı Ordum.
Sildin tariximdən qanlı bir ləkə.
Bayram libasını geyindi yurdum,
Yeni tarix yazdın, ey şanlı Ordum!

«Gülüstan», «Türkmənçay» içimi yaxdı,
Böldü Vətənimi, qandalın taxdı.
Gavurlar sel kimi yurduma axdı.
Qərbi Azərbaycan, Qarabağ doldu,
Araz nalə çəkdi, saraldı, soldu.

"Hay"-lar Vətənimdə çoxaldı yaman,
Axdı ürəyimdən yaş zaman-zaman.
Soyqırım törətdi, artdı çən-duman.
Doğma evimizdə olmadıq rahat,
İçimiz ağladl, bölündük çat- çat.

Yetişdi ikimin iyirminci il,
Azadlıq çələngi dolaşdı el- el.
Şairlər od tökdü, nəğmə qoşdu dil.
Əlimdə qələmlə xidmətdə durdum,
Yeni tarix yazdın, ey şanlı Ordum!

Ali Baş Komandan qalxdı ayağa,
O “dəmir yumruğ” bənzədi dağa.
Xalqım da, arxada döndü dayağa.
Əzilən haqqımı dünyadan sordum,
Yeni tarix yazdın, ey şanlı Ordum!

Qırx dörd günlük döyüş gətirdi zəfər,
Tarixə yazıldı adın, “Müzəffər”.
İndi Xan Şuşama edirik səfər.
Qələbə günləri min şənlik qurdum,
Yeni tarix yazdın, ey şanlı Ordum!

***04.11.2021.***

# Gəl Masallıya

*Doğulduğum, boya-başa çatdığım Masallıya iki poema həsr etmişəm. Bu şeirim də hədiyyə olsun.*

Əgər arzulasan Talış dağların,
Yaşıl yamacların, barlı bağların,
Gözəl "İstisu"yun, gur bulaqların,
Dağda pətəklərə, əli ballıya,
Baxmaq istəyirsən, gəl Masallıya!

Gedək Yanardağa, Viləşə, bəndə,
Baxaq zirvələrdən Xəzərə, kəndə,
Belə gözəllikdən dayanma gendə!
Düzdə ceyranlara, üzü xallıya,
Baxmaq istəyirsən, gəl Masallıya!

"Halay"-ın şöhrəti gəzir dünyanı,
"Nənələr"oxuyur, susdurur canı.
Başda tac ediblər Azərbaycanı.
Cənub zonasında qədim yallıya,
Baxmaq istəyirsən, gəl Masallıya!

Qızlağac qoruğu, limonu, çayı,
Şaqraq şəlalənin tapılmaz tayı.
Gələn qonaqların bilinmir sayı,
Qaçağan atlara, polad nallıya,
Baxmaq istəyirsən, gəl Masallıya!

İynəyarpaq, palıd, motal, tozağac,
Qızılgöz, qəndələş, nil, dəmirağac,
Gözəllik simvolu xeyli növ ağac,
İki göz hey baxa, iki əl saya,
Görmək istəyirsən, gəl Masallıya!

Bir yanı Talış dağ, bir yanı Xəzər,
Beş qonşu rayonlar ətrafın bəzər.
Durna qatarları ötəndə süzər,
Qədim xalçalara, qədim xalıya,
Baxmaq istəyirsın, gəl Masallıya!

Döyüşə atıldı, qalib gəlsin haqq!
Qəhrəman oğullar yetirən torpaq!
Şəhid Qanlarıyla ucaldı bayraq!
Gavurları qova-qova, haylıya!
İgidlər məsgəni, gəl Masallıya!

Orucu, namazı, əlində Quran,
Əlləri qabarlı, yaradan, quran,
Başında hicabı, ürəkdə iman,
Yüz yaşlı nənəyə, beli şallıya,
Görmək istəyirsən, gəl Masallıya!

## Şəhid

Vətən sevgisindən bir məbəd qurdun,
Vətən “Dur!” -deyəndə ayağa durdun.
Düşmənin boynunu sındırıb, burdun,
Cənnət çiçəyindən birisən, Şəhid,
Sən də, bir mələksən, dirisən, Şəhid!.

Döyüş meydanında yenilməz ərdin,
Qaniçən düşmənə sən sinə gərdin.
“Hay”-ın göydən yerə nəşini sərdin.
Xalqımın aslanı- şirisən, Şəhid,
Sən cənnət bağında dirisən, Şəhid!.

Torpağa bələnən al-qan müqəddəs,
Tarixi yaddaşım, o can müqəddəs,
Qızıl- qan axıdan yaran müqəddəs,
Vətənin ürəyi, zərisən, Şəhid,
Sən də bir mələksən, dirisən, Şəhid!

Ey şəhid qardaşım, sən zəfər çaldın,
Uca xan Şuşamı geriyə aldın.
Düşmən boğazına ilməni saldın,
Xalqın inanc yeri, pirisən, Şəhid,
Sən də bir mələksən, dirisən, Şəhid!.

***2024-noyabr.***

# Gözləyir axı

*Çörək dalınca Rusiyaya gedən, sonra 10-illərlə Vətənə dönməyən, ailəsini, övladlarnı unudan, ata-ana qəbrlərini ziyarət etməyənlərə.*

Ey Vətən övladı, qayıt Vətənə,
Bu Vətən sizləri özləyir axı.
Ayaq izləriniz göz yaşı tökür,
Gəzdiyiz cığırlar səsləyir axı.

Qapı, pəncərəniz bağlı qalıbdı,
Əkdiyiz ağaclar hey saralıbdı,
Eviniz dərd çəkir, fikrə dalıbdı,
Gözləri şaxta, qar ələyir axı.

Evin bacasında görünmür tüstü,
Quşlar da inciyib uçmur ev üstü.
Gələndə də, qonaq qalıb əlüstü,
Yoxluğuz qəm-kədər bələyir axı.

Çörəyin ardlnca getdiz bir zaman,
Sonra da yurdunu unutduz haman.
Sizi övlad ahı tutacaq, inan,
Qəlbində sızıltı bəsləyir axı.

Hər zaman, hər saat düşürsüz yada,
Eşidək sizlərdən gəlsin xoş səda.
Sizdən uzaq olsun pislik, dərd-qada,
Ailən, övladın gözləyir axı,
Uzaqdan-uzağa izləyir axı.

## Vəsf eyləyərdim

*(Tələbəlik illərində yazdığım bir şeir)*

Mən şair olsaydım inan ki, əgər,
Xurmayı telini vəsf eyləyərdim.
O dəniz gözünü alıb gözümə,
Bal-şəkər dilini vəsf eyləyərdim.

Kaman qaşlarına baxıb doyunca,
Gözüm usanmazdı ömür boyunca.
Sevən ürəyimə sevgin dolunca,
Ağ çiçək əlini vəsf eyləyərdim.

Ox tək kipriklərin sarılsa mənə,
İkimiz baş qoyub yaşıl çəmənə,
Dolanıb başına hey dönə-dönə,
O incə belini vəsf eyləyərdim.

Sonalar sonası, ey boyu bəstə!
Görsə cəmalını sağalar xəstə.
Düzüm saçlarına gül dəstə-dəstə,
Üzündə xəlini vəsf eyləyərdim.*

Alma yanaqıarın gülsə üzümə,
Tuşlanıb baxarsa gözün,gözümə,
Ömürlük özünü versən özümə,
Hər keçən ilini vəsf eyləyərdim.

Görən, hansı eldən gəldi bu ceyran?
Sübhan Abasbəyli olubdur heyran.
Qəddi-qamətindən bəzəndi seyran,*
Bilsəydim elini vəsf eyləyərdim.

***Bakı- 1976***

**-xəlini-xalını*
**-seyran-təbiət, mənzərə*

# Ey insan

Ey insan, həyatı düz-dürüst yaşa,
Bu dünya fanidir, ömür solacaq.
Gəl vurma ömrünü pisliklə başa,
Unutma, hər canlı torpaq olacaq.

Tamahı qamçıla, quyular qazma,
Şeytana aldanıb yolunu azma.
Halallıqla yaşa, nahaq söz yazma,
Hər qara əməlin səni çalacaq.

Üzə gülümsəyib vurma arxadan,
Üzünü turşudub tutma yaxadan.
Kimsənin ardınca demə navadan,
O əməl kitabın daşla dölacaq.

Yaxşı bir əməlin görünmür gözə,
Abırsız pərdəni çəkmisən üzə,
Düşmüsən şeytanın getdiyi izə,
Adını bəzəyən damğa qalacaq.

Tamahkar, işverən adlanır adın,
Öz həyat yolunu qara boyadın.
Pislikdə hallanır indi soyadın,
Dünya bumeranqdır əvəz alacaq.
Dərin bir quyuya inan, salacaq.



Nəvəm Əli Əhədzadə

## Necəsən

Çoxdandır ayrılıq salıbdır, yağı,
Ata bir, ana bir qanım, necəsən?.
Uzaq düşdün bacı, qardaş elindən,
Can canımdan olan canım, necəsən?
Ata bir, ana bir qanım, necəsən?.

Araz nalə çəkdi, gözlər qızıl qan,
İkiyə bölündü bir bədən, bir can.
Yanır için-için hey Azərbaycan,
Təbriz, Ərdəbilim, şanım, necəsən?
Sən canımdan olan canım, necəsən?.

Ey başı bəlalı Gülüstan kəndi!
Böldün bir milləti, əyildi qəddi.
Çəkdin ürəyimə dəmirdən səddi,
Gözündən yaş axan danım, necəsən?*
Can canımdan olan canım, necəsən?.

**-sübh çağım*

## Gecələr

Saatın əqrəbi sanki yerimir,
Məni məngənətək sıxır gecələr.
Fikir, xəyallarım hay-həşir salır,
Dünya gözlərimdə axır gecələr.

Aylarım, illərim yanımdan keçir,
Gecənin zülmətin doğrayıb biçir,
Yuxum ərşə çıxır, qəm-kədər içir,
Gözlərim yumulu baxır gecələr.

Bir anlıq həyatın göy nəbzi durur,
Gah uçub tökülür, gah məzar qurur.
Gah da məlul baxır, boynunu burur,
Kədəri sinəmə taxır gecələr.

Dünya təlatümlü, artır vay-şüvən,
İnsanda qalmayıb sabaha güvən.
Kiminə toy libas, kiminə kəfən,
Ürəyim top-mərmi çaxır gecələr.

Vətənin qərb küncü təkgözlü ilan,
Tarixi qondarma, əməli yalan.
Diz üstə çökdürdü can Azərbaycan,
Sübhan da, çox rahat yatır gecələr.

***19.01.2025.***

## Varmı

*Tələbəlik illərində yazdığım bir şeir yadıma düşdü*

Məndən vəsf etməyi istəyən gözəl,
İçimdə ağrıdan xəbərin varmı?
Şair ürəyimi eyləmisən ram,
Gözümə baxmağa təpərin varmı?*

Məhəbbət həyatdır, yaranıb belə,
Gəl vurma mizrabı ağrıyan telə.
Sevgi dastanımı sən yayma elə,
Sevib-sevilməyə hünərin varmı?

O şəvə saçını töküb kürəyə,
Sancırsan ox kimi bir- bir ürəyə.
Sıxışdırıb məni dağa, dərəyə,
Üzümə baxmağa təhərin varmı?*

Əzəldən aşiqəm xumar gözünə,
Alma yanağına, şirin sözünə.
Qəddi- qamətinə, özüm, özünə,
Bir gün görüşməyə səhərin varmı?

**1975**

---

**-təpər-həvəs.*
**-təhər-qərar vermək*

## Dünya

Dünya, üzün gülmür, qaynayır için,
Köksün təlatümlü qəm-kədər tökür.
Hər yerin ölüm, qan, top-mərmi səsi,
Evlər viran olur, dağıdır, sökür.

Silahlar dillənir, göydən od yağır,
Ölüm zavodları aldadır, sağır.
İllər bir-birindən ağırdan-ağır,
Ölkələr qazanır, ölkələr çökür.

Vurulur binalar, vurulur uçaq,
Ürəklər dağılır, dağılır ocaq.
İnsanlar evindən düşürlər qaçaq,
Haqsızlar haqlının dizini bükür.

Yarandığın gündən dəhşət saçırsan,
Gah zülmət olursan, gah da açırsan.
Pullunun ardınca düşüb qaçırsan,
Gah da inləyirsən sən hönkür-hönkür.

Dünya, dənizləri torpağa döndər,
Həris ölkələrə toplayıb göndər.
Qara torpağını başına əndər,
Qərq olar içində Allaha şükür.

***28.12.024.***

# Payız

Ey payız, nə oldu qəmlisən belə?
Üz-gözün tutulub qara bağlayır.
Həmişə gülümsər olan gözlərin,
Məlul-məlul, həzin-həzin ağlayır.

Dünya gözlərində qaraldı, niyə?
Yamyaşıl yarpağın saraldı, niyə?
O parlaq gündüzün daraldı, niyə?
Göz yaşın süzülür, ürək dağlayır.

Quşlar da küsgündür, oxumur, baxır,
Onların səsindən qəm-qüssə axır.
Külək də, hirslənib qanadın çaxır,
Duman-çən günəşin önün bağlayır.

Ey payız, bilirəm xeyir ayısan,
Bol-bərəkət, buğda, çəltik tayısan.
Hay-həşirli germic,çovğun hayısan,
Dağda gur şəlalən, çayın çağlayır.
Göz yaşın süzülür, ürək dağlayır.

## Bir də, o yerlərə…

Bir də, o yerlərə qayıda bilsəm,
Ən gözəl şerimi sizə yazardım.
Birlikdə gəzərdik çölü, çəməni,
Xınalı ceyranlı düzə yazardlm.

Şiş uclu qayadan yenə keçərdik,
"Dirilik" suyundan süzüb içərdik,
Ətirli güllərdən bir-bir biçərdik,
Kabab çəkdiyimiz közə yazardım.

Bağçalı- bağatlı yamyaşıl çölə,
Dağların qoynunda, o mavi gölə,
Yallı gedən vaxtı hey gülə-gülə,
Həyatı sevdirən gözə yazardım.

Bəyaz gecələrdə boylanan Aya,
Qayalar döşündən qıvrılan çaya,
Gözəllik yaradan, verən Xudaya
Şerimin sutunu sözə yazardım.

Sübhan Abasbəyli, yenə yay ola,
Alıb yol çantanı çıxaydın yola,
Allahdan ürəyə xoşbəxtlik dola,
Bədahətən deyib üzə yazardım.
Həyatı sevdirən gözə yazardım.

# İnsan gözləri

Bədəni titrədən, qaynadandı, o,
Ürəyi yerindən oynadandı, o.
Qızıla bürünmüş aynadandı, o,*
Güldürən, ağladan insan gözləri.

Qılıncdan kəsərli yay-kamandır, o,
Danışan musiqi, tar-kamandır, o.
Dənizdir, layladır, bir ümmandır, o,
Sızladan, dağladan insan gözləri.

Həyat bəxş eləyən, can alandı, o,
Bəzən də, bəlaya həm salandı, o.
Sevərsə ömürlük ya qalandı, o,
Bulaqtək çağladan insan gözləri.

Sanki ildırımdır vurub yandırır,
Məcnuntək sevməyi sənə andırır.
Həyat gözəlliyin Vallah, qandırır,
Özünə bağladan insan gözləri.

***2024-Sanatoriya, Şimali Qafqaz…***

*- *güzgü.*

## Dünya, səndə nəyim qaldı

Dünya, səndə nəyim qaldı?
Cavanlığım küsüb getdi,
İndi ondan yox bir əsər.
Zalım Fələk kama yetdi,
Qaş ağardı, ağardı baş,
Yaş üstünə hey gəlir yaş.
Zaman məni məndən aldı,
Dünya, səndə nəyim qaldı?

Günüm, ayım keçmədi boş,
Gah üzüldüm, gah da ki, xoş.
Çox ölkələr gəzib gördüm,
Yaxşılardan çələng hördüm.
Şər- xətadan oldum uzaq,
Hərdən döydü məni sazaq.
Payız gəldi yarpaq saldı,
Dünya, səndə nəyim qaldı?

Tələbəydim, müəllim oldum,
Gah sevindim, qəmlə doldum.
Uzaq eldən keçdi yolum,
Üzə güldü sağım-solum.
Beldə silah gəzdim, coşdum,
Biznes qurdum, düzüb-qoşdum.
Sanki bunlar bir xəyaldı,
Dünya, səndə nəyim qaldı?

Rusiyadan, Türkiyədən,
Səsim gəldi uzaq-yaxın.
Selə düşdüm axın-axın,
Çətin günlər, illər keçdim,

Kol- kosları vurub biçdim,
Saf dostlarla saf su içdim.
Həyat əzəl qeylü-qaldı,
Dünya, səndə nəyim qaldı?

Kazan mənə açdı qucaq,
Vətənimdən xeyli uzaq.
Diaspora gəldim rəhbər,*
Vətənimdən aldım təpər.
Çox tədbirə imza atdıq,
Ön sıraya gəlib çatdıq.*
Keçən günlər şirin baldı,
Dünya, səndə nəyim qaldı?.

Nərimanov, Mirzə Kazım,
Şair, söylə, mən də, yazım.
Abidəsin qurduq bir-bir,*
Hər bir işdə olduq əlbir.
Dördyüz on beş ağac əkdik,*
Böyük yola bəzək çəkdik.
Kedib baxmaq xoş bir haldı,
Dünya, səndə nəyim qaldı?

“Azərbaycan kino günü”*
İlk dəfəydi açdıq önü.
Tatar xalqı baxdı-gördü,
Xalqımlza sevgi hördü.
“Xocalıya faktla dolu”*
Həqiqətin güldü yolu.
Ermənini tutan yaldı,
Dünya, səndə nəyim qaldı?
Tələbələr oldu yaxın,
Üz tutdular axın-axın.

Onların ən çətin vaxtı,
Diaspordan kömək axdı.
Çətinliklər çıxdı önə,
Arxa durduq dönə-dönə.
Xatirələr, gözlər daldı,
Dünya, səndə nəyim qaldı?

İkimin on altıncı il,
Dəvət etdi məni sahil.*
Prezidentlə görüş oldu,
Ürəyimə ilham doldu.
Gördüyümüz işə dair,
Hesabatı verdim bir-bir.
Sübhan, o vaxt "Rüstəm Zaldı"
Dünya, səndə nəyim qaldı?
Dünya, səndə izim qaldı.

---

** Sahil-Bakı*

**-Kazanda kino-tetr "Mir"-də "Azərbaycan kino günləri "-2013-2017-ard-arda hır il 1-həftə ,pulsuz yerli camaat üçün-tarixi kinolarımız.*

**"Xocalı Faktlarla"-Kazan Kino-teatr "Mir"2013-2017-ci ilə qədər yerli camaat üçün.*

**Kazan- Ayreport yolunda 415-ağac əkdik-2013-cü il.*

** Kazanda N.Nərimanovun eyni adlı küçədə Xatirə Lövhəsini-2013-cü ildə.*

*Mirzə Kazım bəyin Xatirə lövhəsini Kazan Federal Universitetində-2015-ci ildə.*

**2015-ci ildə RİT AMMM-ı 35 -diaspor içərisində 2-ci yerə gəlib çıxdı.(axırıncı yedən)*

**2012-dekabr.Reqional İctimai Təşkilatı Azərbaycan Milli-Mədəni Muxtariyyatın sədri.*



*Kazan - 2013 cü il 28 may Azərbaycan Cümhuriyyətinin yaranması günündə N.Nərimanovun eyni adlı küçədə Xatirə Lövhəsinin açılışı. Tədbirdə Azərbaycandan Mədəniyyət Nazirliyinin məsul işçisi Rəşad Əliyev, Moskvadan Səfirliyimizin məsul işçisi (müavin) Qüdsi Osmanov, Tatarstanın Dövlət və Diaspor nümayəndələri iştirak etdilər.Tədbirdə Aşıq Əli, E.Abdullayevanın iştirakı ilə konsert proqramı təşkil olunmuşdu.*

## Payız

Yenə payız gəlir, turşudur üzün,
Küsəyən uşaqtək qaşqabaq tökür.
Göy üzü tutulur, bulud ağlayır,
Külək fəqan edir, dağıdır, sökür.

Günəş boynubükük gah batır, çıxır,
Dərdli insan kimi kədərlə baxır.
Ay da yuxuludur, gözləri axır,
Ulduzlar nigaran boynunu bükür.

Saralmış yarpaqlar "əlvida"-deyir,
Üzülür budaqdan qəm-kədər yeyir.
Qış da isti kürkün əyninə geyir,
Gəlir addım-addım hikkəsin tökür.

Köçəri quşlar hey düzülür səfə,
"Qa-qu" yara-yara uçur hədəfə.
Milyon illər təkrar olur hər dəfə,
Çətin yollarından nə qorxur, hürkür.

Sübhan, dünya əzəl qurulub belə,
İnsan da, köç edir ellərdən- elə.
Yağış leysan tökür, qarışır selə,
Su ilə bol olur dəniz, Araz, Kür,
Gəlir damcı-damcı torpağa çökür.

Yaxşılıq edəndə umma təmənna,
Yardım etdiyini çalış tez unut.
Bir əlin verdiyin bir əl bilməsin.
Ağlayan gözləri sevindir, ovut.

## Kişilər olmasa…

Ərz edim sizlərə əziz qadınlar,
Kişilər olmasa dünya var olmaz.
Qadın bir çiçəksə bağbandır kişi,
Kişisiz qadına sevgi yar olmaz.

Kişidir tər-qanla yaradıb quran,
Çəkici zindana endirib vuran.
Ailə önündə dağ kimi duran,
Kişisiz təbəssüm, o evə dolmaz.

Düşmənin önündə cəsur bir ərən,
Vətən dar ayaqda, sinəsin gərən,
Qanını axıdan, canını verən,
Kişisiz xoş həyat bərqərar olmaz.

Kişidir dərd-qəmi içində boğan,
Göz yaşın gizlədib ürəyə sağan.
Göydə bulud olub yağıştək yağan,
Kişisiz bir qadın səadət bulmaz.

Cənnətdə baş tacı olsa da ana,
Övladın ürəyi axsa da ona,
Ata qucağına o, qona-qona,
Ataya məhəbbət tükənib solmaz,
Qadınsız, kişisiz həyat var olmaz!


ALLAH REHMET ELESIN
RUHUN SHAD OLSUN YERIN CENNET
28.07.2011
UNUTMADIQ!!!:(

## Ünvanına yetməyən məktub

*(Ruhun şad olsun, oğlum!)*

Gözlərim önündə gəlib durursan,
Baxırsan üzümə, gözüm ağlayır.
Səssiz danışırsan, duyulmur səsin,
Duruşun, baxışın ürək dağlayır.

Bəlkə günahkaram, qəbahətim var,
Yanında olmadım sənin bir zaman.
İndi hər bir anım, günüm ahuzar,
Sənsiz yaşamıram, yanıram inan.

İstəyirəm verəm sənə şad xəbər,
İki övladların tələbə oldu.
Bilirəm ruhuna olar bir təpər,
Nisgilli evimə xoş ovqat doldu.

Ey fələk, doymursan içdiyin qandan,
Dəyirman daşıtək əzib tökürsən.
Cavanı, körpəni edirsən candan,
Kasıbın, zəifin ömrün sökürsən.

Şair, dərd atıyla sən yola çıxma,
Allah mərhəmətli, kömək edəndir.
Beləcə həyatdan, özündən baxma,
Hər şey yaxşı olar, kədər"gedəndir"

## Həyat arzusu

Allahım, sən mənə elə ömür ver,
Kimsəyə möhtacım olmasın mənim.
İstəmirəm yüz il, səksən, doxsan il,
Ürəkdə bir arzum solmasın mənim.

Elə ömür ver ki, yeriyim, qaçım,
Həkimə dərmanə yolumu salma.
Qapı, pəncərəmi bağlayım, açım,
Evimdən kənarda canımı alma.

Allahım, sən məni elə yaşat ki,
Qulağım eşitsin, gözlərim görsün.
Yaşayım gözütox, ölüm gözütox,
Əlim gecə-gündüz yaxşılıq hörsün.

Doxsanı haqladı rəhmətlik babam,
Nə iynə vurdurdu, nə dərman içdi.
Yaxşı tanıyırdı onu el-obam,
Zəhmətlə tər tökdü, əkdiyin biçdi.

Allahım, sən mənə elə ömür ver,
Nəvə toyu görmək qismətim olsun.
Yollarımda bitən daş-kəsək, tikan,
Gözlərim önündə xar olub solsun.

## "Ölüm yuxusu"

Bu gecə yuxuda gördüm ölmüşəm,
İnsanlar çiynində aparır məni.
Ardımca gül səpir qohum-əqrabam,
Evimdən zor ilə qoparır məni.

Həyat yoldaşımın gözü ağlayır,
Cənazəm ardınca baxır, üzülür.
Dediyi oxşama ürək dağlayır,
Onun yanağından kədər süzülür.

Cənazəm yol gedir, baxıram yola,
Dünya gözlərimdə qaralıb durur.
İzdiham burulur gah sağa, sola,
Məzarçı qəbrimi qazıyır, qurur.

Cənazəm qoyulur qəbrimə yaxın,
Cənazəm önündə qılınır namaz.
Namaza durmağa başlanır axın,
Səs-səmir kəsilir, kimsə duyamaz.

Məni son mənzilə endirən zaman,
Hövlanak oyandım əllərimdə tər.
Bir yuxu da olsa dəhşətdir yaman,
Ölüm yuxuda da, betərdir, betər.

Sübhan, vaxt yetişib, daha hazır ol,
Yarım işlərini tez qurtar, bitir.
Çox da uzaq deyil gedəcəyin yol,
Savab işdən yapış, günahı itir.



## Ata bilmirəm

Çəkilib sinəmə sərvi-cəmalın,
Qoparıb kənara ata bilmirəm.
Gecə ulduzları, gündüz günəşi,
Gəzib axtarıram, çata bilmirəm,
Qoparıb kənara ata bilmirəm.

Danışıb gülürük, baxıb üz-üzə,
Bəzən inciyirik, gəlib söz-sözə.
Tutaraq əl-ələ, durub göz-gözə,
Görürəm röyadı, yata bilmirəm,
Kəsib ürəyimdən ata bilmirəm.

Telefon zəng çalır, alıram ələ,
Səsini gizlədib, gəlmirsən dilə.
Ürək çırpıntısın duyuram belə,
Sözümü sözünə qata bilmirəm,
Ürəkdən çıxardıb ata bilmirəm.

Gözüm gözlərinin içində qaldı,
Ürəyimi çəkdi, kəməndə saldı.
Saçların ruhumu özümdən aldı.
Qövsi qaşlarına bata bilmirəm,
Qoparıb kənara ata bilmirəm.

# Hacı Məmmədəli

*Otuz illik dostum Hacı Məmmədəliyə*
*ithaf edirəm. Allah rəhmət eləsin.*

Bir dost da köç etdi, getdi həyatdan,
Gözdən yaş süzüldü, ürək ağladı.
Dostluq da fanidir, sonu var imiş,
Xatirə dilləndi, sinə dağladı.

Birləşdirdi bizi həyat telləri,
Səfərlərə çıxdıq, gəzdik elləri.
Bir-bir yola saldıq ağır illəri,
Çətinlik, doğruluq bizi bağladı.

Kazanda görüşdük, uzun yol keçdik,
Dostluq, qardaşlığın andını içdik.
Öndə gəlib duran kol-kosu biçdik,
Cavanlıq illəri birgə çağladı.

Uçaqla, qatarla qət etdik yolu,
Bəzən başımıza töküldü dolu.
Aramıza girdi ayrılıq qolu,
Əcəl tez yetişdi vurdu, oxladı.

Sübhan, dünya fani, unutma bir an,
Yenə dostlarından üzüldü bir can.
Başımız üstündə qaralır duman,
Vaxtsız ölüm gəldi, yenə haqladı.

***05.09.2024***

# Danışan illər

Bəzən xatırlayıb keçən günləri
Ürək qətrə-qətrə əriyir, yanır.
Baxdıqca geriyə, ötən çağlara,
İllər dilə gəlir, yaddaş oyanır.

Dodaqlar keyləşib, danışmır dilim,
Bir-bir cana gəlir günlərim, ilim.
Dizlərim bükülür, titrəyir əlim,
Dünya gözlərimdə qara boyanır.

Gözləri gözümə dikilir, gülür,
Gözümdən gözünə həsrət süzülür.
Hər keçən dəqiqəm ölür, üzülür,
Ruhumda yer alıb gəzir, dayanır.

Hara gedirəmsə yanımda durur,
Getdiyim yollarda heykəlin qurur.
Küsgün baxışlarla boynunu burur,
Ayrılıb gedəndə geri boylanır.

Heç bir cavan ömrü yarı olmaya,
Ömrü üzülməyə, yanıb solmaya.
Həsrət göz yaşları gözə dolmaya,
Ürək dilə gəlir, hey səni anır,
Dünya gözlərimdə qara boyanır.

## Oğlum Elçinin ad günü

Allahdan arzumdur, ay əziz oğlum,
Mənalı ömür-gün qismətin olsun.
Yüz yaşa gələsən üzündə sevinc,
Nəvə-nəticənlə ev- eşik dolsun.

Haqqın-ədalətin dalınca qaçdın,
Özünə həyatda bir cığır açdın.
Halal çörəyinlə günəştək saçdın,
Yolunda kol-koslar tezliklə solsun.

Övlad-nəvələrin görəsən toyun,
Nəsilin çoxalsın ucalsın soyun.
Ucalardan uca olsun həm boyun,
Xoşbəxtlik, bol ruzi hey səni bulsun.

Kəbəyə tezliklə qonaq gedəsən,
Allahın evini təvaf edəsən.
Zəm-zəmin suyundan süzüb içəsən,
Attığın qara daş şeytanı yolsun.

## “Of”- deməz

Dildən pərgar olan şəxsdən uzaq dur,
Yarı yolda səni atar “of”-deməz.
Tamah, yalan olur onun dünyası,
Bəd ayaqda səni satar, ”of”-deməz.

Söz verər sözündə heç zaman durmaz,
Ülfəti, dostluğu pak, təmiz qurmaz.
Ən çətin məqamda axtarıb sormaz,
İşsiz-gücsüz durub, yatar, “of”-deməz.

Bir- bir varlıların qapısın döyər,
Dilini susdurmaz, özünü öyər.
Qeybət qıra-qıra hər kəsi söyər,
Xeyir işin önün tutar, “of”-deməz.

Keçmişə boylanıb yad etməz bir an,
Yaxşılıq edərsən çıxardar yaddan.
Yapışar zəlitək şöhrətdən, addan,
Ağ köynəyə çirkab atar, “of”-deməz.

Yerişi- duruşu təkəbbür, bədxah,
Əməli, sözləri oyadır ikrah.
Beləsindən uzaq et bizi, Allah,
Halalına haram qatar, “of”-deməz.

## Çəkic, mismar, daşam mən

*"Ömrüm boyu mismarı çəkiclə daşa yeritməyə çalışdım, amma ixtiyar yaşımda başa düşdüm ki, çəkic də, mismar da, daş da elə mən özüməm". Bu sözlər, "Şərəf Nişanı" ordenli, "Əmək İgidliyinə Görə", "Tərəqqi" medalları ilə təltif olunmuş, Masallı rayon Komsomol Komitəsinin birinci katibi işləmiş, hal-hazırda Masallı Rayon Ziyalıları Birliyinin sədri, çox hörmətli dostumuz Qardaş Fətullayevə məxsusdur.*

*Qardaş müəllimin - "Çəkic də, mismar da, daş da mən özüməm" statusunu Masallı Ziyalılar qrupunda oxuyandan sonra.*

Bir ömür hey döydüm mismarı daşa,
Bir əlimdə çəkic, tər-su üz- gözüm.
İxtiyar yaşımda anladım, inan,
Dilləndi ürəyim, gül açdı sözüm,
Çəkic də, mismar da, daş da, mən özüm.

Halal duz-çörəklə bir ömür sürdüm,
Həyatın yoxuşun, enişin gördüm.
Haqdan, ədalətdən dünyamı hördüm,
Xalqımın yanında ağdır həm üzüm,
Çəkic də, mismar da, daş da, mən özüm.

Tamahdan, yalandan qaçdım ha qaçdım
Qaranlıq yollarda günəş tək saçdım.
Düzün, doğruluğun cığırın açdım.
Yaxşı əməllərim hey düzüm-düzüm,
Çəkic də, mismar da, daş da, mən özüm.

Allahdan arzumdur, çörək bol olsun,
Hər evə, obaya xoş ovqat dolsun.
Vətən düşmənlərim xar olub solsun.
Hər bir çətinliyə biz tapaq çözüm,
Çəkic də, mismar da, daş da, mən özüm.

Sübhan, şeir yazdın dostun Qardaşa,
Ayağı dəyməsin kəsəyə, daşa.
Arzumdur ki, gəlsin onu yüz yaşa.
Tapsın ürəyində sağlıqlı dözüm,
Çəkic də, mismar da, daş da, mən özüm.

# Xəyala dönən illər

Dünyanın qəribə işləri varmış,
Ötən günlərimiz ən yaxın olur.
Unuda bilmirik bir ömür boyu,
Hər gün ürəyinə sədası dolur.

Boylanıb geriyə baxmaq da ağır,
Gəlib gözlərinin önündə durur.
Üstünə göylərdən xatirə yağır,
Getdiyin yollarda heykəlin qurur.

Yadına salanda bir-bir sözlərin,
Xəyallar sonsuza aparır səni.
Ağırdır unutmaq məsum gözlərin,
O illər özündən qoparır səni.

Kaş, geri dönəydi yenə, o günlər,
Birlikdə danışıb-gülə biləydik.
Əlinə alaydı toylar-düyünlər,
Nisgilli çağları başdan siləydik.

## Ey dərd

Ey dərd, nə oldu ki, sən belə tüğyan edirsən?
Minib köhlən ata ətrafı biryan edirsən.

Çəkdin misri qılınc, vurdun zərbəni sinəmə,
Bələyib qəm oduna, gözləri giryan edirsən.

Əlim iş tutandan saldın məni sən möhnətə,
Ürək qübar edir, kənardan seyran edirsən.

Ləli-gövhərimi aldın əlimdən bir zaman,
Baxıb şadi-xürrəm əğyarı heyran edirsən.

Çox evlər dağıldı, çox insana vurdun yara,
Əzib saği- solu, uçurdub viran edirsən.

Sübhan Abasbəyli, Xudadır hər dərdi yazan,
Səbr et, qəm-kədəri yoxsa ki, üryan edirsən.

## Bayramınız mübarək, dostlar

Bu bayram günləri mübarək olsun,
Xoş ovqat, sağlamlıq sizləri bulsun.

Ömür-gün yolunuz açsın gül-çiçək,
Həyatdan pisləri doğrayıb, biçək.

Övlad, nəvələrin toyunu görün,
Onlara xoş günlər diləyin, hörün.

Vətən torpağımız sülhə bələnsin,
Hər evə xoşbəxtlik, sevinc ələnsin.

## Külək

Yerə leysan yağır, yerdən çay axır,
Sel-suya qərq olub torpağın üzü.
İldırım şığıyır, yandırıb -yaxır,
Külək öz səsinə bələyib, düzü.

Yolda görünürlər arabir maşın,
Suyu yara-yara keçir, sovuşur.
Aramsız siqnallar insanın başın,
Alıb ağuşuna, selə qovuşur.

Belə bir havada, xəstə bir qoca,
Əl-ayaq büzüşüb, dil-dodaq əsir.
Söykənib tək-tənha, tənha ağaca,
Soyuq qılınc olub üz-gözün kəsir.

Maşınlar şütüyür, yanından ötür,
Qurtulmaq istəyir çovğundan hərə.
Hamı öz hayında öz dərdin ütür,
Soyuqdan donana baxmır bir kərə.

Ürək dilə gəldi:-Sən getmə, dayan,
Sənə əl açana, əl uzat, hay ver.
Qəflət yuxusunda çox yatma, oyan,
Onsuz da çəkəcək kamına, o yer.*

Maşını saxladım, qapını açdım,
Bədəni əsirdi, gözlərində yaş.
Titrəyən əllərə köməyə qaçdım,
Baxırdı üzümə nəzərləri daş.

-Gəl əyləş maşına, çağırdım onu,
Üz-gözü canlandı, dilləndi dili.
Sanki, açılmışdı gözünün donu,
Ünvanın söylədi, əsirdi əli.

Çatdırdım ünvana, ürəyim rahat,
Gözəl işlər ilə gözəldir həyat.

---

**-məzar.*

## Bənövşə

Bəlkə sevdiyindən düşübdü ayrı,
Yanaqlar göyərib, göz yaşı tökür.
Baxır gecə- gündüz yollara sarı,
Ürək qübar edir, boynunu bükür.
Nə ola, çoxala tuta kövşəni,
Solmaya, oxşaya göz, bənövşəni.

Allah bir möcüzə yaradıb onu,
Göy-yaşıl rənglərdən biçilib donu.
Min- bir xəstəliyə məcundur unu,
Təəssüf ki, solacaq, torpaqdı sonu.
Təbii gözəllik sarıb gülşəni,
Tax sinən üstünə, yaz bənövşəni.

Dağların döşündə verib baş-başa,
Köksünü söykəyib sal-qaya, daşa.
Görən insanları gətirir cuşa,
Gah topa dayanıb, gah da ki, qoşa.
Bəzəyib dağ döşün, mavi guşəni,
Ən uca zirvəyə yaz, bənövşəni.

İnsanlıq savadla ölçülmür, inan,
İnsanlıq insanın qanında olur.
Oxuyub alim də, ola bilərsən,
Mərifət, qanacaq canında olur.

## Əziz qadınlar

Səkkiz mart günüz mübarək olsun,
Hər evə, obaya xoş bahar dolsun,
Təbəssüm çələngi sizləri bulsun,
Sağlam ömür sürün, əziz Qadınlar!

Sizdən uzaq olsun, göz yaşı, kədər,
Ömür yollarınız getməsin hədər,
Sizlərlə dost olsun xoş ovqat, qədər,
Övlad toyu görün, əziz Qadınlar!

Xoşbəxtlik axtarıb tapsın hey sizi,
Ürəkdə olmasın göz yaşı, izi,
Pislik uzaqlaşsın, solsun diz-dizi,
Xoş sözdən ev hörün, əziz Qadınlar!

## Şair, o yerləri gəzdin bir zaman

Ürəkdə qəm-kədər, gözlərdə hicran,
Vətənin sevincin almışdın, Şuşa.
Otuz il əllərin buxovda qaldı,
Bizləri möhnətə salmışdın, Şuşa.

Əl- ayaq qandallı, o Cıdır düzün,
Vəhşi heyvanlara olmuşdu meydan.
Hər gün qəm süzürdü, o məsum üzün,
Haylar yallı gedir, dolmuşdu meydan.

Gündə bir bəyanat verirdi "gavur",
Xankəndi sızlayır, tökür göz yaşı.
"Vahid respublika"-qışqırır, durur,
Ona səs verirdi Makron qardaşı.

İndi üz -gözündən sevinc tökülür,
Axır ki, düşməni yendin, xan Şuşam!
Mənfur düşmənlərin bağrı sökülür,
Qayıtdın Vətənə, gəldin, can Şuşam!

Şair, o yerləri gəzdin bir zaman,
Laçın, Ağdam, Şuşa, İsa bulağın,
Şiş uclu dağların başında duman,
Var olsun üçrəngli Vətən bayrağın!



*Tatarstanda 2014-cü il-Azərbaycan Milli-mədəni Muxtariyyatın təşkil etdiyi Novruz bayramı günləri.*



*Kazan şəhərində Novruz bayramı 2016*

## Həyat, niyə qəddar oldun

Fikir, xəyal alır məni,
Qəm bağına salır məni.
Tikan olub çalır məni,
Qılınc çəkib kəsdin, yoldun,
Həyat, niyə qəddar oldun?

Bu dünyanın dərdi bitməz,
Gözdən axan yaşı itməz.
Gözlərimdən gözü getməz,
Gül tək açıb gül tək soldun,
Həyat, niyə qəddar oldun?

Günlər keçir, hicran üzür,
Ürək al-qan gözdən süzür.
Əlim yazır, kədər düzür,
Qəlb evimə gəlib doldun,
Həyat, niyə qəddar oldun?

Övlad dərdi ağır dərddi,
Hər bir anı qəm-kədərdi.
Bu da tale, bir qədərdi,
Bilməm hardan məni buldun,
Həyat, niyə qəddar oldun?

## Ad günün mübarək, Zeynəbim

Bu gün sənin günün, bu gün özəl gün,
Günəşdən pay alsın, parlasın üzün.
Gülüş çəlınginə bələnsin gözün,
Arzumdur, hər anın sevinclə dolsun,
Zeynəbim, ad günün mübarək olsun.

Ali təhsil alıb gülərüz yaşa,
Həyat arzuların dəyməsin daşa.
Yüz il ömür sürüb vurasan başa,
Getdiyin yollarda kol-tikan solsun,
Zeynəbim, ad günün mübarək olsun.

Allah qismət etsin toyunu görək,
Elçinlə, Əliylə bir yallı gedək.
Başınnın üstündə var olsun çörək,
Xoşbəxtlik hər zaman evini bulsun,
Zeynəbim, ad günün mübarək olsun.

## O gün gələr, inşəallah

*Çox hörmətli şairə xanım Zöhrə Qaraqızının "Quş olmaq istərəm" şeirini oxuyarkən çox kədərləndim və 200-mindən çox qərbi Azərbaycandan olan həmvətənlərimizin öz ata-baba yurdlarından faciəli şəkildə didərgin salınması illəri gözlərimin önünə gəldi.*

Gözümdə yaş giləlendi,
Ürək baxıb kədərləndi.
Qəm yaşına üz bələndi,
Oxuyanda misra-misra.

Vətən dərdi aşıb-daşdı,
Dərə-təpə, dağ, daş aşdı.
İllər keçib, ahıl yaşdı,
Gözlər tökür qora-qora.

Qarı-düşman kinin tökdü,
İnsanlığın səddin sökdü.
İkiyüz min belin bükdü,
Ürək oldu para-para.

Məzar daşım deyir ağı,
Şumlatdırdı qara yağı,
Çəkdirdilər bizə dağı,
Vətən oldu yara-yara.

Uca Allah bir yol açdı,
Qarabağa günəş saçdı.
Gavur quyruq qısıb qaçdı,
Mərd oğullar vura-vura.

İnanıram bir gün gələr,
Zəngəzurun üzü gülər.
Şanlı ordum deşib-dələr,
Beton səddi yara- yara.

## Kimdir günahkar

Nə oldu bu həyat dəyişdi belə?
İnsanmı günahkar, ya bəlkə zaman?
Dağılır özüllər hey ildən-ilə,
Boşanma çoxalır, sönür, ay Dədə,
Sevən gözlər yaşla dönür, ay Dədə.

Toy edib evinə gətirir gəlin,
Yalvarır Allaha qaldırıb əlin.
Xeyir-duasını alır həm elin,
Bir il ötmür sevgi ölür, ay Dədə,
Şeytan da sevinir, gülür, ay Dədə.

Övladdır insanın başının tacı,
Övladsız bu həyat acıdan-acı.
Çatlamış ürəyin yox bir əlacı,
Həyatı yüz ölçüb-biçək, ay Dədə,
Öləndə də, rahat köçək, ay Dədə.

Düşünüb-daşınaq, olmayaq lal-kar,
Oxusun övladlar, qalmasın bekar.
Sonra axtarmayaq bais, günahkar,
Bir ocaq yandıraq təzə, ay Dədə,
Müdrik sözlərinlə bəzə, ay Dədə.

# Ad günün mübarək

*(həyat yoldaşıma)*

Sənin doğum günün mübarək olsun,
Sağlamlıq, xoşbəxtlik qəlbinə dolsun,
Həyat yolumuzdan itsin qəm-kədər.
Sizdən uzaqdayam, yetməyir ünüm,
Ad günün mübarək, ay ömrüm-günüm.

Əzəldən zəhmətlə qol-boyun olduq,
Halal duz-çörəklə yaşadıq, dolduq.
Ən çətin günləri adladıq, yolduq,
Arzumdur, birlikdə gəncliyə dönüm,
Ad günün mübarək, ay ömrüm-günüm.

Gülərüz, mənalı, şən ömür yaşa,
Arzu-diləklərin dəyməsin daşa,
Yüz illik bir həyat vurasan başa,
Övlad, nəvələrə baxıb öyünüm,
Ad günün mübarək, ay ömrüm-günüm.

Sübhan Abasbəyli yazdı, çağladı,
Qələmə bal-şəkər qatıb yağladı,
Həyat yoldaşına çələng bağladı,
Bax beləcə ürək dinsin, söyünüm,
Ad günün mübarək, ay ömrüm-günüm.

# Bir gecədə 60-il

Gecə keçir, ötür zaman,
Əldə qələm, başda duman,
Qələm yazır, bilmir doymaq,
Gəzir el-el, oymaq-oymaq.
Birdən saat açdı gözün,
Siqnal verdi, dedi sözün:
"Qələmi at, gecdir daha,
Yazı işin qoy sabaha!"
Baxdım əqrəb göstərir "bir",
Ürəkdə söz hələ bitmir.
İşıq söndü, susdu qələm,
Lakin susmur gözdə ələm.*
Baş yasdığa qoyan kimi,
Gözlər enib uyan kimi,
Ötən çağlar gəlib tapdı,
Sağa-sola atın çapdı.
Hadisələr gəldi dilə,
Ağıl, ürək çıxdı zilə.*
Vicdan durub hakim oldu,
Sual-cavab daşıb-doldu.
Dilə gəldi yaxşı-yaman,
Xatırlandı keçmiş zaman.
Altımış il həyat yolum,
İşıqlandı sağım-solum.
Yolum- izim çıxdı üzə,
Dost-tanışlar gəldi gözə.
Hakim bəzən "alqış"-deyir,
Ağıl, ürək tərif yeyir,
Getdiyim yol, hər bir addım,
Dost-tanışlar, düşmən-yadım,
Bir-bir keçir ələyimdən,

Ağrı-acı kürəyimdən.
Neçə-neçə dostlar gördüm,
Ürəyimə qardaş hördüm,
Üzə gülüb tələ qurdu,
Kürəyimdən xənçəl vurdu.
Yadlar gördüm düz ilqarlı,
Sözü bütöv, dağ vüqarlı.
Düz addımlar qaldırır baş,
Yanlış addım gözlərdə yaş.

***

Vicdan edir sorğu-sual,
Ürək, ağıl olub bihal,
Ürək dedi: - Günahım yox,
Ağıl gərək düşünə çox.
Nə istədim “yox”demədi,
İşin sonun düşünmədi.
Ağıl dedi: -Ürək yaman,
Eşitmədi o, çox zaman.
Düz sözümə “olmaz”-dedi,
Bəzən yolu yanlış getdi.
Hakim dindi, söylədi son,
Ədalətdən geyindi don.
-Ağıl gərək qura sərhəd,
H ər bir işdə hüdudla hədd.
Ürək, ağıl olsalar bir,
Hər bir işdə düz həmfikir,
Şeytan görüb uzaq qaçar,
Hər günümüz gülab saçar.

***

Sübh çağıydı sözün düzü,
Yatmaq üçün yumdum gözü.
Birdən gəldi azan səsi,
Səsləyirdi hər bir kəsi.

Uzanmışdım, qalxdım daha,
Əl götürdüm mən Dərgaha.
***
Baş-beynimi döyür yuxu,
Tuşlayıbdır neştər oxu.
Uzandım ki, bir az yatam,
Göz acısın gözdən atam,
Gözlərimi yuman zaman,
Arvad ordan dindi haman:
- Kişi, bəsdir çox yatdın ha,
Aç gözünü, bax sabaha,
Hava dolub, bəlkə yaga.
Tez liftə min, düş aşağa,
Süd, pendir al, lavaş, çörək,
Bir də meyvə gətir görək.
Üzümə su tökə-tökə,
Gözdən yuxu sökə-sökə.
Liftlə düşdüm beşdən birə,*
Baxdım açan tər səhərə.
***
Bir gecəm də ötdü belə,
Ömür qaçır, dönüb selə.
Qocalırıq hər an, hər an,
Sən qocalma, Azərbaycan!
Bir yanın "od" biri "baycan",*
Mənim canım Azərbaycan,
Ürək qanım Azərbaycan.

**-ələm, (qəm-kədər)*
**-zilə, (mübahisə)*
**-beşdən birə (mərtəbə)*
**-Od (azər), baycan (varlı)*

## Dünyamız zəhərli ilandı, oğul!

Dünyamız əzəldən qurulub belə,
Birinə cəlladdır, birinə kölə.
Gah səsin endirir, ucaldır zilə,
Tez-tez boşalandı, dolandı, oğul,
Bu dünya bir əfi ilandı, oğul.

İnanma dünyanın gülən üzünə,
Gözəlliklə baxan qara gözünə,
Birdən qılıncını çəkib üstünə,
Bütün verdiyini alandı, oğul,
Bu dünya bir əfi ilandı, oğul.

Saxtakar, riyakar yetişir hər gün,
Az qala dünyanı tutur büsbütün.
Gözlər baxa-baxa qalıbdı üzgün,
Həyat başdan-başa yalandı, oğul,
Zəhərli ilan tək çalandı, oğul.

Haqqı olanların haqqını danma,
“Dostam”deyənlərə sirrini açma.
Hər yoldan ötənə əsla inanma,
Bu dünya “saf”lara palandı, oğul,
Zəhərli ilan tək çalandı, oğul.

Təzə dosta görə köhnəni atma!
Qızıl tək vaxtını yuxuya satma!
Yatmış bir ilanı vurub oyatma,
Yaxşı əməllərin qalandı, oğul,
Bu dünya bir əfi ilandı, oğul.

Sübhan Abasbəyli, öyün özünlə,
Çıxmadın yollara yalan sözünlə.
Həyatda yaşadın halal, düzünlə,
Əyrilik, saxtalıq solandı, oğul,
Bu dünya bir əfi ilandı, oğul.

## Eşit bizi, ya Xuda

Nə ola insanlar heç qocalmaya,
Çata yüz yaşına, həm cavan qala.
Saçlar ağarmaya, göz uzaq görə,
Bədəndə təravət,güc-qüvvət ola.

Xəstəlik insandan üzülə, qaça,
Önümüz önündə gül-çiçək aça,
Günəş də üzünə, təbəssüm saça,
İnsanlıq yaşaya, sədaqət ola.

Dünya sülh içində yaradıb-qura,
Silah zavodları bağlana, dura,
Sərhədlər çürüyə, bəzənə nura,
Xoş ovqat,məhəbbət,ünsiyyət ola.

Övlad acısını dadmaya, ata,
Arzuya-murada o, çata-çata,
Sevinci-sevincə hey qata-qata,
Övladlar içində xoş ülfət ola.

Ayılt insanları, eşit, ey Xuda!
Hələ ki, insanlar yatmış, yuxuda,
Bizləri buraxma, yetiş sən dada,
Bütün ürəklərdə saf niyyət ola.

## Nə ola dünyada od-alov sönə

Olsaydı əlimdə elə bir imkan,
Qəmli göz yaşını selə verərdim.
Göydən ulduzları yığıb səbətə,
Şəhidlər önündə yerə sərərdim.

Yolunu açardım gözəl günlərin,
Vaxtsız ölümlərin kəsib önlərin,
Birləşdirib bütün dünya dinlərin,
Qurani-Kərimi uca görərdim.

Sülhün bayrağını ucaldıb göyə,
Yayardım dünyaya, şəhərə, köyə.
Təkəbbür, tamahı hey döyə-döyə,
Qara qüvvələri kökdən dərərdim.

Nə ola hər yerdə od-alov sola,
Silahsız bir dünya evimiz ola,
Kinli ürəklərə məhəbbət dola,
Belə gözəlliyə çələng hörərdim.

Sübhan Abasbəyli, düşmə xəyala,
Hər şeyin nizamın ölçübdü Tala.*
Ömrümüz, sonumuz kaş, yaxşı ola,
Dünya sülh içində ömür sürərdim.

---

**-Allah*

## Köçən gəncliyim

Niyə uzaqlaşdın, tərk etdin məni?
Sən ey ucalardan ən uca dağım.
Hər yerdə gözlərim axtarır səni,
Qayıt gəl evinə, ay gənclik çağım!

Yanımda olanda hər səhər-axşam,
Olmuşdun ən yaxın dostum, dayağım.
Səndən gen düşəli bihal olmuşam,
Qayıt gəl evinə, ay gənclik çağım!

Çox ölkələr gəzdim, mənimlə oldun,
Vuran qolum idin, gəzən ayağım.
Hər yerdə haqsızın səsini yoldun,
Sənsizlik çətindir, ay gənclik çağım!

Keçilməz sədləri səninlə keçdim,
Qarşımda əzildi düşmənim-yağım.
Uca dağ başından buzlu su içdim,
Qayıt gəl evinə, ay gənclik çağım!

Sübhan Abasbəyli, çox fikir çəkmə,
Ucalardan uca həyat bayrağın.
Qocalıq dərdini sinəndə əkmə,
Bir daha qayıtmaz, o gənclik çağın.

## Yeni tarix yazdı müzəffər Ordum

Didərgin salındıq,Vətən ağladı,
Xocalım od tutdu, sinə dağladı.
Qaçqın insanların yolun bağladı,
Dünya görüb susdu ″hay″a, ay Dədə,
Hay vermədi bizim haya, ay Dədə.

Bir milyon qaçqınım soyulan zaman,
Bir-bir rayonlarım tutulan zaman,
Gözləri kor olan, oyulan zaman,
Görən harda idi dünya, ay Dədə?
Çağırdıq gəlmədi haya, ay Dədə.

Yeni tarix yazdı müzəffər Ordum,
Çıxdı əsarətdən sızlayan yurdum.
Başımı dik tutdum, qürurla durdum,
Makron üz-gözünü yoldu, ay Dədə,
Düşmənin niyyəti soldu, ay Dədə.

Erməni dığalar ölkəmdən getdi,
Onlar İrəvana xətərsiz yetdi.
Xalqımız sərhəddə köməyə etdi,
Evinə çatanda söydü, ay Dədə,
Uzaqdan bizləri "döydü", ay Dədə.

Sübhan Abasbəyli, yalvar Allaha,
Xalqımız düşməsin dara birdaha.
Hicranlı illərim çox gəldi baha,
"Hay"lara etibar yoxdu, ay Dədə,
Etdiyi zülümlər çoxdu, ay Dədə.

# Dünya

İnsanları bir-bir alıb dişinə,
Hayana gedirsən sən belə, dünya?
Nə insaf edirsən nə də, mürüvvət,
Qurursan hərəyə bir tələ, dünya!

Üyüdüb tökürsən sanki dəyirman,
Nə cavan, nə körpə vermirsən aman.
Arzular sinədə qovrulur haman,
Döndərib həyatın sən külə, dünya!

Elə hey alırsan doymayır gözün,
Neçə milyard ötüb yorulmur özün.
Nəsillər dəyişir, dəyişmir üzün,
Çox tüğyan edirsən sən hələ, dünya!

Birin qaldırırsan dağın başına,
Birinin baxmırsan cavan yaşına,
Birinin tökürsən zəhər aşına,
Vermirsən yaxanı sən ələ, dünya!

Xeyli əvvəl daşlı tozdan yarandın,
Günəş təkan verdi nurla darandın.
Torpağa, sulara, dağa sarandın*,
Allahın şəninə eşq dilə, dünya!

Əlində silah var “Tufanlı külək”,
Edirsən həyatı sən ələk-vələk.
Məqsədini söylə de, biz də bilək,
Hər yeri bürüyüb zəlzələ, dünya!

Sübhan Abasbəyli,qınama çox da,
Onun da xəmirin yoğuran Xuda,
Alın yazımızı yazır həyatda,
Sonumuz dönəcək xəzələ, dünya!

---

**-sarıldın*

# Ay dədə

Ölkəmin hər yeri bazar, mağaza,
İstehsal yox olur, batır, ay Dədə!
İndi nə əkən var nə də ki, biçən,
Ordan-burdan alır, satır, ay Dədə!
İstehsal yox olur, batır, ay Dədə!

Fabriklər, zavodlar işləmir daha,
Hər şeyi xaricdən alırıq baha.
Kəndli də gözünü dikib sabaha,
Bütün günü evdə yatır, ay Dədə!
İstehsal yox olur, batır, ay Dədə!

Sosial yardımlar minibdı "mod"a,
İşləyib çalışmaq heç düşmür yada.
Gözümüz öyrəşib özgəyə, yada,
Təmiz bala şəkər qatır, ay Dədə!
İstehsal yox olur, batır, ay Dədə!

Tiryək alverçisi qorxmur heç nədən,
Nə qara zəncirdən, tikanlı teldən,
Nə də ağrı çəkən bu yazıq eldən,
Sayları ulduza çatır, ay Dədə!
Dünya göz önündə batır, ay Dədə!

Hörmət-izzət ölüb, pul çıxıb önə,
Yalan ayaq açır, çıxır hər tinə.
Allaha and içir hey dönə-dönə,
Aldadıb borc alır "atır", ay Dədə!
İnsanlıq yox olur, batır, ay Dədə!

Sübhan Abasbəyli, çox fikir çəkmə!
Dərd-qəm çələngini sinəndə əkmə!
Açıb hər eyibi vərəqə tökmə!
Onsuz da azalmır, artır, ay Dədə!
İnsanlıq yox olur, batır, ay Dədə!

## Lüt-üryandı ölkəmiz

*(Bəzi toylarımıza)*

Ey insanlar, hara gəlib çatmışıq?,
Başdan-başa lüt-üryandı ölkəmiz.
Sinə açıq, baldır açıq, kürək daz,
Alov saçır, al-biryandı ölkəmiz,
Başdan-başa lüt-üryandı ölkəmiz.

İşıq sönür, qadın, kişi qarışır,
Qol-boyunlar, əllər belə darışır,
Gözlər gözə baxa-baxa yarışır,
Qovha-qovdu, ağ ceyrandı ölkəmiz,
Başdan-başa lüt-üryandı ölkəmiz.

Avropaya kəsə yolla yan aldıq,
"Vağzalı köhnəldi", "caz"a bayıldıq.
Yatmış idik, birdən-birə ayıldıq,
Özgələrə çox heyrandı ölkəmiz,
Başdan-başa lüt-üryandı ölkəmiz.

Restoranlar həddin aşır, şüdd edir,
İsrafçılıq, ifratçılıq can didir,
Müğənni də, mikrafonla xod gedir,
Ürək susur, göz giryandı ölkəmiz,
Başdan-başa lüt-üryandı ölkəmiz.

Qaçışırıq, istəyirik tez keçək,
Sağı -solu dəryaz ilə hey biçək,
Şərab süzüb bəy, gəlinlə biz içək,
Baxmaq üçün bir "seyran"dı ölkəmiz,
Başdan-başa lüt-üryandı ölkəmiz.

## Unutma, ey dost

*(İnsanlarda nöqsan axtaranlara)*

Həyat çox qısadır, unutma ey dost,
Vaxtın qədrini bil, sovurma yelə.
Dedi-qodularla keçirmə zaman,
Hər şeyə baş qoşub əsmə tez belə.

Bulaq tək həzin ax, od tək alışma,
Əsəb tellərini gərildib daşma.
İnsanlıq səddini sındırıb aşma,
İşin məğzini bil, tələsmə hələ.

Əgər bacarırsan yaz-yarat əsər,
Tarixin canlansın, oxusun bəşər.
O zaman soyadın tarixə düşər,
Vaxtını yandırıb döndərmə külə.

Görülən işlərə dodağın büzmə,
Kənarda dayanıb qıyğacı süzmə,
Tikanlı sözləri yan-yana düzmə,
Əlinə çox güvən, güc vermə dilə.

İnsanın içində axtarma nöqsan,
Ürəklər küsdürüb incitmə bir can.
İndi tənqid etmək olubdur asan,
Yavaş get, tələsmə, gəl çıxma zilə.

# Anan deyilmi

*(Gədəbəyin Söyüdlü kəndində baş verən hadisələrə)*

İnsanlıqdan uzaq olma, ey insan!
O yerdə yıxılan anan deyilmi?
Gözünə zəhəri püsgürən zaman,
Ağlayan, bayılan anan deyilmi?

Ağappaq saçları, qabarlı əli,
Alın cizgiləri, zəhmət əməli,
Günün qabağında titrəyən dili,
Dərisi soyulan anan deyilmi?

Dil tap insanlarla, dinlə onları,
Onlar özgə deyil, türkdü qanları.
Gedib Şəhid oldu neçə canları,
Vətənin yolunda yanan deyilmi?

Səhərdən axşama alnı tər tökən,
Ürək ağrısıyla torpağı sökən,
Çörəyi torpaqdan, şumlayıb əkən,
Gözləri oyulan anan deyilmi?

## Yolunu azma

*(Çox hörmətli sayın Ərdoğan qardaşımız bu yaxınlarda Azərbaycanda olanda xalqımıza, hər ailəyə beş uşaq arzulaması gözəl arzu olsa da, bəzilərinin təəssüf ki, xoşuna gəlmədi.)*

Ey insan, ip salma sözün başına,
Hər sözü düşünüb əyriyə yozma.
Şirin arzulara sən də şirin qat,
Dostun qədrini bil, yolunu azma,
Hər sözü düşünüb əyriyə yozma!

Dedi: -"Ailədə beş uşaq olsun",
Elimiz, obamız sevinclə dolsun.
Gavurun arzusu ürəkdə solsun,
Bu sözü çevirib əyriyə yozma,
Dostun qədrini bil, yolunu azma!

"Beşlik böyük deyil dünyadan"-dedi,
"Zəngəzur ipək yol"-həmən söylədi.
Türkün dünyasını uca eylədi,
Bunları unutma, yolunu azma,
Qardaşsan, qardaşa quyular qazma!

O, bütün dünyaya ismariş verdi,
Düşmənin önündə sinəsin gərdi.
Açıb ürəyini Şuşada sərdi,
Haqlı sözlərini əyriyə yozma,
Qardaş qədrini bil, yolunu azma!

Ağac tək olarsa, külək hey döyər,
Budağın qolunu sındırar, əyər.
Qurd da gövdəsini somurar, yeyər,
Qardaşın sözünü əyriyə yozma,
Unutma bunları, yolunu azma!

## Məzun

*(Nəvələrim Əli və Fatimənin timsalında bütün məzunlara ithaf olunur.)*

Sən ey Vətənimin əziz övladı,
"Məzun" adlarınız mübarək olsun.
Müstəqil həyatda addım atdığın,
Həyat yollarınız sevinclə dolsun.

Ürəkdə arzunuz açsın gül- çiçək,
Günəş də sevinsin, nurunu saçsın.
Tökülsün yoluna hey ləçək-ləçək,
Qəm-kədər sizlərdən uzağa qaçsın.

Bu gün sevinc günü, gözümüz aydın,
Bu gün "kədərli gün", ağlama, məzun!
Müstəqil həyata yazılır adın,
Sənsiz darıxacaq, o məktəb yolun.

Ən uca zirvəni ağılla fəth et!
Xoşbəxtlik, sağlamlıq üzünə gülsün.
Həqiqət yolunu yorulmadan get,
Göylərdən üstünə ənbər tökülsün.

Arzumdur, həyatı mərd-dürüst yaşa,
Məktəbi, müəllimi unutma bir an.
Ali təhsil alıb vurasan başa,
Sizinlə fəxr etsin can Azərbaycan.

## Zuvandlı

*Vaxtı ilə təyinatla işlədiyim, Masallının ən gözəl, dağlar qoynunda yerləşən, mavi gözlü bulaqları ilə dillər əzbəri olan Zuvandlı kəndinə ithaf olunur.*

Dağların döşündə füsunkar yurdun,
Qartallar oylağı, sən ay Zuvandlı.
Min illik ağaclar sanki bir ordun,
Vətənin yaylağı, sən ay Zuvandlı.

Bumbuz bulaqların dillər əzbəri,
Axır qayalardan hey həzin-həzin.
Çəkir ürəklərdən acı dərd-səri.
Tarixdən süzülən sorağın, səsin.

Şiş uclu qayalar verib baş-başa,
Səhərlər Zuvanda salam söyləyir.
Söykənib sarsılmaz, oyulmaz daşa,
Günəş də sevinir, şadlıq eyləyir.

Halal duz- çörəyin, qabarlı əlin,
Namazın, orucun, Allaha andlı,
Hiylədən, yalandan uzaqdır dilin,
Dağlar yaraşığı, sən ay Zuvandlı!

Sübhan Abasbəyli yazdı, çağladı,
Zuvandlı kəndinə kitab bağladı.
Misraları, düşmən gözün dağladı,
Kəndlərdən aralı, sən ay Zuvandlı!

## Sirli dost

*Bu yaxınlarda "Ürəyimin harayı "kitabım çapdan çıxandan sonra tanımadığım bir nömrədən sms gəldi və məni təbrik etdi. Yazılarından hiss etdim ki, qadındır və əvvəllər dostluğumda olub. Adını soruşdum demədi, şeir istədi. Bir bənd yazdım, "azdır" - dedi, dördüncü bəndi yollayanda bir təhər razı qaldı.*

Yazıb kitabımı təbrik edən dost,
Çox da intizarda saxlama məni.
Adını yazsaydın xoşhal olardım,
Sirli sözlərinlə oxlama məni.

Özünü gizlətmə ey gözəl pəri,
Şairin qəlbindən gəl sil kədəri.
Yandır yollarında çil-çıraq zəri,
Daha çox incidib yoxlama məni.

Nə deyim səndəki sehirli dilə?
Elə hey çəkirsən dostunu zilə.
Adını gizlədib vermirsən ələ,
Közərmiş dilinlə dağlama məni.

Sübhan Abasbəyli yazıb söylədi,
Dostluqda sadiqdir, bəyan eylədi.
Dost dediyi qılınc çəkib teylədi,
Aman bulok etmə, bağlama məni.

O nədir ki, məzar qazar özünə?
Girər məzarına örtər üstünü.
Ölümsüz yuxuya gedər bir zaman,
Ağ mərmərdən inşa edər büstünü.



*“Xocalı Faktlarla”- sənədli filminin Kazanda Kinoteatr “Mir”-də yerli əhalini iştirakıyla nümayiş etdirilməsinin Tatarstanın rayon və şəhər Diaspor nümayəndələrilə müzakirəsi. İclasda Moskvadan Leyla xanım Əliyevanın da, nümayəndəsi iştirak edir. Kino 26 fevral 2013-2017-ci illər arası mütəmadi olaraq göstərildi və Azərbaycanda ATV tel.kanalı da bu haqda məlumat yaydı.*



*Kazan şəhərində Mirzə Kazım bəyin 2015-ci il, 28 mayda Xatirə lövhəsinin açılışı günü. Tədbirdə Moskvadan Səfir müavini Qüdsi Osmanov, Tatarstanın Dövlət və Hökumət nümayəndələri, müxtəlif ölkələrin Diaspor sədrləri iştirak etdilər. Tədbirin təşkilatçısı Tatarstanda, Azərbaycan Diadporası (sədri Sübhan Əhədzadə)*

## Qismətin olsun

*(Qızım Gülnarın ad gününə)*

Şirin-şəkər, gözəl qızım, Gülnarım,
Sağlam bir həyatın, dövlətin olsun.
Çingizin toyunda qol-qanad açıb,
Gəlinlə oynamaq qismətin olsun.

Həyatda xoşbəxt ol, gülərüz yaşa,
Heç zaman ayağın dəyməsin daşa.
Rahidlə yüz ili vurasız başa,
Halal duz-çörəyin zəhmətin olsun.

Aygülüm, Gülayım tutsun əl-ələ,
Məryəmə, Saraya səadət dilə!
Rəcəb bəy, Xədicəm yaraşıq, elə,
Çingizin övladı şöhrətin olsun.

Elçinim, Əsmərim, Əli bəy, sizə,
Kədər-qəm düşməsin ürəyinizə.
Məhəmmədəlim də adlasın yüzə,
Fatimə, Zeynəbim zinyətin olsun.

Vətən qədrini bil, Vətən bizə can,
Vətənin naminə tökülüb al-qan.
Var olsun həmişə qoy, Azərbaycan.
Vətən düşmənlərim nifrətin olsun.

Sübhan Abasbəyli, yalvar Allaha,
Həsən bəy, Leyluşum oxşasın "şaha".*
Zəhragül həyatda ucalsın daha,
Anan Kərbəlayı izzətin olsun.

**-ucalıq mənasında*

## Gözüm ağladı

Atalı günlərim düşdü yadıma,
Baxdım o illərə, gözüm ağladı.
O idi köməyim, dadıma çatan,
Sözləri canlandı, sözüm ağladı,
Baxdım o illərə gözüm ağladı.

Əlləri qabarlı, zəhmətkeş insan,
Dilindən çıxmazdı acı söz, yalan.
Allahı hər anda yadına salan,
Getdi həyatımın onunla dadı,
Baxdım o illərə gözüm ağladı.

Atam ürək sirrim, evim, dirəyim,
Mənə təhsil verən, halal çörəyim.
Ona söykənirdi əlim, kürəyim.
Hər zaman dilimdə çəkilir adı,
Atalı illərə gözüm ağladı.

Sovet önəmiydi, vəziyyət çətin,
"Köləsiydi" qoca, cavan dövlətin.
İşləməkdən beli əyri millətin,
Salanda yadıma qohumu, yadı,
Gördüm o illəri gözüm ağladı.

Babam Alı, İsa, Əhəd, Cahangir,
Ən qədimdən bəri soyumuz gəlir.
Mal-mülk sahibləri, şumlayır, əkir.
Sovet zorla aldı, ürək dağladı,
Baxdım o illərə gözüm ağladı.

Əzizlərim, atam, anam köç etdi,
Üç oğlum bizləri tərk edib getdi.
Fələk arzusuna, kamına yetdi.
Qəlbim hey alışdı, yaram çağladı,
Sübhan Abasbəyli yazdı, ağladı.

## İnsanlıq tükənir, solur, ay Dədə

Bazarda qiymətlər çıxıbdır ərşə,
Kim necə istəyir yolur, ay Dədə.
Pul da öz dəyərin itirir hər gün,
İnsanlıq tükənir, solur, ay Dədə!
Kim necə istəyir yolur, ay Dədə!

Oğurluq, narkoman alıb hər yanı,
Hər gün neçə-neçə öldürür canı.
Bahalıq şüdd edir, gəzir dünyanı,
Pozğunluq çoxalır, artır get-gedə,
Qəlbimə od düşür, yanır ay Dədə!

Qaz da bahalaşır, tuta bilmirəm,
İşığı zülmətə qata bilmirəm,
Bir neçə yorğanla yata bilmirəm,
Donuram soyuqdan, alıram zədə,
Ürəyim kövrəlir, solur, ay Dədə!

Mağazalar necə gəldi "oynayır",
Ərzağın qiyməti daşıb-qaynayır.
Nəzarət edən də, öz pulun sayır,
Yal görəndə müti olur, ay Dədə.
Kim necə istəyir yolur, ay Dədə!

Bu aydan o aya yetməyir param,
Ağrıdır, incidir, sizladır yaram.
Ömür-gün əriyir hey, aram-aram,
Qanlı yaş süzülür, çirpınır didə,*
Baş alıb hayana qaçım, ay Dədə?

Dilənçi çoxalır, işsizlik artır,
Ehtiyac insanı pis yola dartır.
Köç edir Vətəndən, evini atır,
İnsanlar bir-birin hey didə-didə,
Kəndimiz boşalır, solur, ay Dədə!

İşbazlar sevinir, həm virus əkir,
Xəstəlik qılıncın üstümə çəkir,
Həkim də gözünü cibimə dikir,
Ailə yanında dil olub güdə,
Kim necə istəyir yolur, ay Dədə!

İndi günahkarı harda axtaraq?
Açaq kitabları, bax varaq-varaq.
Mal-qara görünmür, əkilmir torpaq,
Umuruq özgədən pay güdə-güdə,
Yoxsulluq evimə dolur, ay Dədə.

Gözəl Qarabağın həsrəti bitdi,
Qələbə müjdəsi Şuşadan yetdi.
Düşündük, hayların sədası itdi,
Havadar bizlərə tez biçdi hədə,
İçimdə qıvrıldım, yandım, ay Dədə!

Sübhan arzu edir, iş yeri ola,
Zavodlar, fabriklər açıla, dola,
Cavanlar köçməyə, evində qala,
İtsin Qarabağdan o mənfur gədə,
Hələ arzularım çoxdur, ay Dədə!

---

**-göz*

# İradə Aytel

***Gözəl jurnalist İradə Aytel xanımın təxminən 2-3-saat bundan əvvəl öz səh.yazmışdı: - Bir dostum məndən inciyib getdi və mənim haqqımda yazdığı şeiri də sildi.***
***Bu şeiri hörmətli dostumuz İradə xanıma ithaf edirəm.***

Həqiqət söylədin, ardınca qaçdın,
Günəştək ətrafa öz nurun saçdın.
Çox bağlı qapını sözünlə açdın,
Yazdığın gül açdı, dolaşdı el-el,
İnsanlıq carçısı, İradə Aytel.

Əgər dost inciyib gedirsə uzaq,
Könlünü üzməsin, zəhərli sazaq,
Baxaq gözəlliyə gəl şeir yazaq,
Saçların üzünə tökülsün tel-tel,
Üzün gülümsəsin, İradə Aytel.

Ömrünüz getməsin, axmasın hədər,
Gülsün üzünüzə xoş sevinc, qədər.
Sizdən uzaq olsun, itsin qəm-kədər,
Toy- büsat gününə axışaq sel- sel,
Ay gözəl dost bacım, İradə Aytel.

## Sən də bir mələksən

2019-cu ilin sentyabr ayı idi.

Bir neçə gün idi ki, Kazan şəhərindən Azərbaycana, Vətənimə dönmüşdüm.

Növbəti kitabımı çap etdirmək üçün “Adiloğlu” nəşriyyatına gəldim, çox hörmət bəslədiyim, gözəl şairə bacım ,”Axırıncı Güllə” kitabımın redaktoru olmuş Nəcibə xanım İlkin də orada idi. Ordan-burdan, keçmişdən, gələcəkdən söhbət edirdik ki, otağa bir xanım daxil oldu, başında hicabı, bir az kədər və məsumluq yağan gözləri, həyatın enişli-yoxuşlu, acılı-şirinli anlarından xəbər verirdi. Ciddiliyi, eyni zamanda səmimiyyəti, geyim tərzi, danışıq mədəniyyəti, Azərbaycan xanımına məxsus bütün müsbət çalarları özündə cəmləşdirən ziyalı bir xanım təsüratı yaradırdı. Əslən Azərbaycanın dağlar qoynunda yerləşən, saf bulaqlar məsgəni, gözəl təbiət mənzərəsilə əhatə olunan Yardımlı rayonundan olsa da, hal-hazırda Bakıda yaşayır.

Şair və yazıçıların əsərlərini, təsisçisi və rəhbəri olduğu “djb.az» saytında təmənnasız paylaşan şairə-publisist, gözəl xanım, Almaz İlahə Əhmədova, nə yaxşı ki, sizin kimi yaxşılar var, yoxsa həyat cansıxıcı, maraqsız olardı.

Sən də bir mələksən, Vətəndi yurdun,
Qadınlıq qürurun qəlbində qurdun.
Halal zəhmətinlə ayaqda durdun,
Sən ey “Odlar qızı”, Almaz İlahə!

Haqqı, ədaləti vermədin bada,
Başın əyilmədi dostlara, yada.
Kasıb imdadına yetişdin dada,
Sən ey “Odlar qızı”, Almaz İlahə!

Sən də bir əsgərsən, əlində qələm,
Gəzirsən Vətəni hey qədəm-qədəm.
Şuşaya gedəndə kaş, mən də gələm,
Sən ey “Odlar qızı”, Almaz İlahə!

Mələksən, göylərdən enmisən yerə,
Bütün vücudunla düşmənsən şərə.
Başında hicabla örnək şəhərə,
Sən ey “Odlar qızı”, Almaz İlahə!

Sübhan Abasbıyli oldu qardaşın,
Şəhid anaları bacın, sirdaşın,
Vətənin hər yeri sənin yurddaşın,
Sən ey Odlar qızı, Almaz İlahə!
Sən ey dağlar qızı, Almaz İlahə!



«Azərbaycan» Regional İctimai Təşkilatı
Tatarıstan Respublikası Azərbaycan milli-mədəni muxtariyyatı

Региональная Общественная Организация
Азербайджанская национально-культурная автономия
Республики Татарстан «Азербайджан»

«Әзәрбәйжан» Региональ Җәмгыять Оешмасы
Татарстан Республикасы Әзәрбәйжан милли-мәдәни мөхтәрияте

Tatarstan Respublikası, 420107,
Qazan şəhəri, Pavlyuxin küç-57,
tel.: 237-97-90

Республика Татарстан, 420107,
г. Казань, ул. Павлюхина - 57,
тел.: 237-97-90

Исх.: №44 от 2.12.2015

**Председателю
Государственной Думы ФС
РФ С.Е. Нарышкину**

**Уважаемый Сергей Евгеньевич!**

Региональную общественную организацию «Азербайджанская национально-культурная автономия Республики Татарстан «Азербайджан» обеспокоил факт обсуждения законопроекта № 938567-6 «О внесении изменений в Уголовный кодекс Российской Федерации и в статью 151 Уголовно-процессуального кодекса Российской Федерации» об установлении уголовной ответственности за отрицание так называемого «геноцида армян». Мы считаем, что такой подход к однобокому рассмотрению проблемы, предложенный депутатами Государственной Думы Н.В. Левичевым и С.М. Мироновым недопустим в современном гражданском обществе.

Те, кто хотят поднять тему «армянского геноцида» в России должны понимать, что в нашей с Вами стране проживает до 3 миллионов азербайджанцев, в одном Татарстане азербайджанцы входят в десятку самых многочисленных народов республики (до 20 тысяч представителей азербайджанского народа). Эти миллионы людей играют важную роль в экономическом, политическом, социальном развитии своей второй Родины – Российской Федерации. Действия депутатов Государственной Думы очень расстроили братский азербайджанский народ. Мы с недоумением и негодованием следим за всей этой шумихой вокруг «армянского геноцида», при этом ведь никто не вспоминает о том, что армянами была оккупирована пятая часть азербайджанских территорий, на которых применялись поистине нацистские меры по уничтожению коренного, азербайджанского, заметим, населения!

Настоящий геноцид – это Ходжалинская трагедия, о которой, мы считаем, Вам хорошо известно. 1992 год – это поистине черный год для нашего народа, который до сих пор с болью отдается в наших сердцах. Обидно, что вспоминая «армянский геноцид», Государственная Дума РФ не



вспоминает эту трагедию, хотя трагедия азербайджанского народа признана во многих странах. Странно, что, несмотря на то, что Азербайджан является настоящим другом и многолетним партнером России, несмотря на многовековые связи народов России и Азербайджана, некоторые силы усиленно пытаются раскачать межнациональный мир в Российской Федерации путем таких непродуманных и односторонних действий.

Однако, мы считаем, что Российский парламент – это место, где трудятся поистине достойнейшие представители своей страны и Государственная Дума не допустит опрометчивого шага.

**С уважением,
Председатель РОО
«Азербайджанская НКА РТ «Азербайджан»** **С.К. Ахадзаде**

Обращение поддержали:
Руководитель МОО «Азербайджанская община «Бирлик» г.Альметьевск РТ» Ф.А. Бакиров, Руководитель МОО «Азербайджанская НКА Г. Бугульма РТ» М.М. Багиров, Руководитель МОО «Азербайджанская НКА «Дуслык» в Елабужском районе РТ» З.Д. Оруджова, Руководитель азербайджанской общины г.Зеленодольска и Зеленодольского района РТ А.Д. Хыдыров, Руководитель «МОО Азербайджанская НКА г.Лениногорск РТ» Р.М. Мамедов, Руководитель Культурно-экономического центра «Азербайджан» г.Набережные Челны РТ Г.С. Мамедов, Руководитель МОО «Азербайджанская НКА г. Нижнекамска РТ» А.А. Алиев.

*Ermənilərin "qondarma soyqırım" iddiasına cavab olaraq Kazan şəhərində Azərbaycan Diasporunun Moskvaya göndərdiyi etiraz məktubu*




***Kazan-2013.Azərbaycanın Milli Qəhrəmanı***
***Mübariz İbrahimovun xatirəsinə həsr olunmuş tədbir.***





*Kazan 2015-ci il 20 yanvar - "Qara Yanvar" günü.*

# HEKAYƏTLƏR



## Tacir və dəvə

*Səhvi qocalanda düşünən bir baş,*
*Cavanlıq çağında düşünəydi kaş!*

Keçmiş zamanlarda bir tacir vardı,
Qədim xalça-palaz alıb satardı.
Ən uzaq yerlərə edərdi səfər,
Çox vaxt ticarəti çalardı zəfər.
Dəvənin üstündə çox ağır yükü,
Xoşa gəlimliydi məxmərdən tükü.
Tacirin çiynindən asılmış yaraq,
Eşşəyin belində gedərdi qabaq.
Dəvə zəhmətkeşdi, cavandı yaşı,
Eşşək quyruğuna bağlanmış başı.

Günlər ötüb keçir, dəyişir zaman,
Tacir də, dəvə də, qocalır yaman.
Səfərə çıxmaqdan tacir əl çəkir,
Keçmiş günlərini ürəkdə əkir.
Bildi ki, ömrünün yetişib sonu,
Kədər ağuşuna bələdi onu.
Xeyli fikirləşdi, duruxub qaldı,
Gedib dostlarından halallıq aldı.
Həyatda gördüyü yaxşı, pis əməl,
Keçdi gözlərindən onun əlbəəl.

Tamahı üzündən yolunu azmış,
Şeytan, o tacirin quyusun qazmış.
İndi düşünürdü keçmiş günahı,
Ölüm yatağında uca Allahı.

Tacir dəvəsini görməyə gəlir,
Ürək döyüntüsü qəlbini dəlir.
-"Ey dəvə, bağışla, əfv et sən məni,
Əgər incitmişəm, üzmüşəm səni"
Dil açdı, ağladı, dəvə danışdı,
Onun dil-dodağı yandı, alışdı.
-"Vaxt olub günlərlə susuz qalmışam,
Yerli-yersiz səndən tənə almışam.
Vaxt olub aclıqdan ürəyim axıb,
Gözüm yorğunluqdan ildırım çaxıb.
Çox zaman belimdə yük olub ağır,
Hərdən də, başıma gur yağış yağır.
Xəstə günlərimdə dəstək olmadın,
Bir gün dərdlərimi gəlib sormadın.
Qonağın gələndə balamı kəsdin,
Özün öz balanın üstündə əsdin.
Bunların hamısın halal edirəm,
Ölüm yaxınlaşıb, mən də, gedirəm.
Amma ki, bir dərdim məni hey əzir,
Başımda fırlanır, qəlbimdə gəzir.
Eşşək quyruğuna məni bağladın,
Bütün səfər boyu əzdin, dağladın.
Bunu heç bir zaman etmərəm halal,
İstəyirsən indi gəl canımı al."
Dəvənin sözündən tacir üzüldü,
Acı göz yaşları axdı, süzüldü.

Ey insan, tamahı qamçıla, gen qaç,
Halallıqla yaşa, günəştək nur saç.
Tamahdır insanı zillətə salan,
Kədər ağuşuna bələyib alan.
İnsana, heyvana çox diqqətli ol,
Onlara sevgiylə, məhəbbətlə dol.
Zəhmətlə yaşayıb alın təri tök,
Təkəbbür, tamahı baltalayıb sök.

Sübhan Abasbəyli yazıb söylədi,
Sizlərə uzaqdan salam eylədi!

## Ölüm hökmü və Loğmanın zəhəri

O, cavan yaşında itirdi ərin,
Ağuşuna aldı acı dərd- sərin.
Ərindən bir uşaq yadigar qaldı,
Həyat tək ananı zillətə saldı.
Gözünün yaşını axıtdı, sildi,
Təklik sızıltısın o, indi bildi.
Saçının birin ağ, birini qara,
Dağ kimi dərdini o, yara-yara,
Əlləri qabarlı ayağa durdu,
Abırdan özünə bir məbəd qurdu.

Gündüzlər işlədi, gecə dərd hördü,
Həyatın acısın, şirinin gördü.
Övladı gəlmişdi on səkkiz yaşa,
Tökdüyü alın-tər getmədi boşa.
Fərhad qəbul oldu ali məktəbə,
Ucaldı önündə yeni mərtəbə.
Ananın ürəyi olsa da, çat-çat,
Zirvəyə ucaldı sevinci qat-qat.
Sevinc göz yaşları üzünə güldü,
Qəm-kədər içində boğuldu, öldü.

İllər bir- birinin ardınca baxdı,
Xoş xəbər ananın qəlbinə axdı.
Fərhad ali məktəb diplomun aldı,
Tələbəlik dövrü arxada qaldı.
Azad nəfəs aldı, sevindi ana,
Sanki bu dünyanı verdilər ona.
Gözaltı etdiyi qəşəng bir qıza,
Oğlunun sevdiyi parlaq ıldıza,

Ana elçi getdi, "Hə"-sini aldı,
O, xoş günlərini yadına saldı.

Toy-büsat quruldu, evi gül açdı,
Aybəniz ananın gözü nur saçdı.
Evə gəlin gəldi, sular duruldu,
Yeni bir ailə, bir ev quruldu.
Toy günün səhəri Aybəniz ana,
Getdi məzarlığa o, yana-yana.
Əri Canangirin qəbrinin üstə,
Ərinə hesabat verdi ahəstə.
- "Övladımız Fərhad qurdu ailə,
Sən də, övladına səadət dilə.
Kaş ki, sağ olaydın, görəydin toyun,
Öpəydin üzündən, süzəydin boyun".
Ana köks ötürdü, göz yaşın sildi,
Yavaş addımlarla evinə gəldi.

Toydan bir ay sonra, qısa bir zaman,
Gəlin söz- söhbətə başladı haman.
Fərhad səhər tezdən gedirdi işə,
Qaynana başlaylr evdə biş-düşə.
Gəlin qaynanaya göstəriş verir,
Üstünə çımxırır, sinəsin gərir.
Ər evdən çıxandan yıxılıb yatır,
Yemək gec gələndə aləmi qatır.
Gəlin ağa oldu, qaynana kəniz,
Ananın gözləri süzürdü dəniz.
Ana ağlayırdı, susub yanırdı,
Ərin yada salır, onu anırdı.
Oğluna sirrini açmırdı ana,
"Bəlkə də, gəlinin qəlbi oyana".
Gəlinsə çalışır, qaynana ölsün,

Əl-ayaq açılsın, üz-gözü gülsün.
Xeyli düşünərək şər- plan qurdu,
Gəlin səhər tezdən ayağa durdu.
Götürdü çantanı, yola düzəldi,
Yaşlı bir loğmanın yanına gəldi.
Həkimin yanında ağladı, dindi.
Qaynana ardınca coşdu, deyindi.
-"Elə zəhər ver ki, öldürüm onu,
Gəlsin həyatının, ömrünün sonu.
Canım, o qocadan qurtulsun, bitsin,
Gözlərim önündən ömürlük itsin".

Loğman bir az susdu, fikirə getdi,
Gələn gəlin qıza köməyə yetdi.
Bir torba zəhəri verərək ona,
-"Üç ay vaxt verirəm, öləcək ana.
Elə et şübhəyə düşməsin ərin,
Yoxsa türmələrdə ötər günlərin.
Hər gün yeməyinə zəhəri az qat,
Sonra da, arzuna, muradına çat.
Amma ki, üç ayı sən mehriban ol,
Qaynananı çox sev, əzizlə bol-bol.
Ərin, həm qaynanan bilməsin gərək,
Can deyib, can eşit, sevinsin ürək".

Gəlin tez zəhəri alaraq getdi,
Sandı ki, arzuya-kamına yetdi.
Gələrək evinə, dəyişdi tamam,
Başladı söhbətə: - "Ay əziz anam,
Daha sən əl vurma evdə bir işə,
Gəz-dolan özünçün, olma əndişə.
Sənin övladınam, sən də ki, anam,
Başına dönərəm, qurbanın ollam".

O gündən dəyişdi evdə ab-hava,
Gəlin qaynanayla etmədi dava.
"Anacan"-kəlməsi hər addımbaşı,
Amma, unutmurdu zəhərli aşı.
Gizlində zəhərdən yeməyə qatır,
Xoşbəxt gəlin kimi əriylə yatır.

Günlər bir-birini hey əvəz edir,
Oğul da, xəbərsiz işinə gedir.
Zəhərli xörəkdən verirdi ona,
İştahla yeyirdi xəbərsiz ana.
Ona "qızım" deyir, ürəyi yanır,
Aydanı özünə bir övlad sanır.
Gəlinin onunla isti söhbəti,
Unutdurdu ona, əzab-şiddəti.
Evdə gülüş səsi töküldü, daşdı,
Ananın sevinci dağ-daşı aşdı.

Həkimin möhləti hələ bitməmiş,
Zəhər qaynanaya təsir etməmiş,
Gəlin qaynanayla, ana-qız oldu,
Onların evinə məhəbbət doldu.
Aydan çox yalvardı, əziz Allaha,
Yeməyə zəhəri tökmədi daha.
Tutduğu əməldən peşiman oldu,
Gəlinin gözləri sel-suyla doldu.
"Allaha nə cavab verəcək indi?"
Göz yaşı axıtdı, danışdı, dindi.

Üz tutdu loğmanın yanına gəlin,
Loğmanın yanında qaldırdı əlin.
- "Səni and verirəm Allaha, həkim,
Bu acı günahı mən necə çəkim?

Qaynanam ölərsə, ölərəm mən də,
Əlim quruyaydı zəhər verəndə.
Doğma anam kimi sevirəm indi,
Allah kömək etdi, qəlbim isindi.
Elə et ay həkim, ölməsin anam,
Yaşasın həyatda əziz qaynanam".
Loğman sona qədər dinlədi, baxdı,
Onun sözlərindən nəsihət axdı.
-"Qızım, getdiyin ev sənə doğma ev,
O evin daşını, torpağını sev.
Qaynana, qaynata həm ana, ata,
Hər bir sözlərinə duz qata-qata,
Yaşa həyatını, çiçək kimi aç,
Gözəl əməlinlə aləmə nur saç.
Sənə, o verdiyim zəhər deyildi,
Qurumuş otlardan ətirli gildi.
Üç ay vaxt verdim ki, şirin dilli ol,
Şeytani hissləri yavaş-yavaş yol.
İndi get evinə, xoşbəxt ol, yaşa,
Ayağın dəyməsin heç zaman daşa".
Sevincdən hönkürüb Aydan ağladı,
Həyat arzuları sutək çağladı.
Əyilib loğmanın öpdü əlindən,
Xoş sözlər gül açdı onun dilindən.

Ey insan, insanla gözəl rəftar et,
Xoş əməl, işinlə ucalığa yet.
Yalandan, böhtandan uzaq ol, uzaq,
Kimsəni şərləyib qurma sən duzaq.
Sözdən çələng hörüb şad et insanı,
Zəhərli sözlərlə küsdürmə canı!!!

***Dekabr 2024***

## O, onu seçdi

*(adlar şərtidir)*

*Olmuş bir əhvalat danışım sizə,*
*Gül kimi yayılsın ürəyinizə.*

Qırx dörd günlük döyüş gətirdi zəfər,*
Yaralı əsgərim yeddi min nəfər.*
Üç min şəhid verdik, ürəyim al-qan,
Vahid, bütov oldu can Azərbaycan.
Şuşam azad oldu, Qarabağ tacı,*
"Hay"-ların kəsildi, söndü əlacı.*
İkiyüz illik "Mif" dağıldı, soldu,
Onların qəlbinə od-alov doldu.

Qələbə günündən ötmüşdü bir il,
Yollandı Bakıya bir qazi acil.
Gələrək həkimə üzündə kədər,
Onun da həyatın yazmışdı qədər.
Atasın- anasın fələk tez almış,
Babanın, nənənin yanında qalmış.
Vətənin dar günü cəbhəyə getdi,
Azadlıq uğrunda iştirak etdi.

Cəbrayıl, Fizuli, Zəngilan, Şuşa,
Qubadlı uğrunda girdi savaşa.
Bir-bir azad olur, xar olur düşman,
Utancdan qurtulur can Azərbaycan.
Ağdamda döyüşlər getdiyi zaman,
Ağır yara aldı dizdən qəhrəman.
Təcili Bakıya yollanır əsgər,
Döyüşdə şir kimi vuruşan, o ər.

Həkimlər üstündə çalışır- əsir,
Axır məcbur olub dizindən kəsir.
Artıq bir il ötüb indi, o gündən,
Ptotez qoyulub dizin özündən.
Yekun yoxlanışa gəlmişdi indi,
Qazi dostlarını görüb sevindi.
Həkimin yanına göndəriş alır,
Qapının önündə dayanır, qalır.

Qazilər növbəsiz olsa da, düzü,
Dayanır, gözləyir sakitcə özü.
Növbəsi çatanda otağa girir,
Qazi olduğunu orda bildirir.
Həkim qız Elcanın yaşını sorur,
Yaxına gələrək yanında durur.
Nəbzini yoxlayır, təzyiqin ölçür,
Xəyalı cəbhəyə, o günə köçür.

Qazi danışırdı, səsində inam,
Qalib ordumuzdan alırdı ilham.
Doktor heyranlıqla dinləyir, baxır,
Qazinin sözləri ürəyə axır.
Qəhrəman əsgərin ədəbi, özü,
Həkimin qəlbində iz salır sözü.
- "Yəqin ki, evlisən?"-Həkim soruşdu,
Həkimin yanağı əsdi, duruşdu.
- "Ailəm babamdır, nənəm, bir bacım,
Atamdan, anamdan ağrılı acım.
İtirdik onları biz körpə vaxtı,
Çökdü həyatımın çücərən taxtı.
Bizə babam, nənəm arxa durdular,
Bizimlə qaldılar, həyat qurdular.
Hərbi təhsilim var, otuzdur yaşım,

Hələ ki, yoxumdur həyat yoldaşım".
- "Niyə evlənmirsiz?-illər tez keçir,
Zaman qayçı kimi doğrayıb- biçir".
Deyə, doktor dindi, gözləri güldü,
Ürəyi qaziyə yandı, üzüldü.

Qazimiz bir anlıq duruxub qaldı,
Həkimin sözləri "çətinə" saldı.
- "Bacım tələbədir, oxuyur hələ,
Üstümdə ağırdır aldığım şələ.
Bacımın təhsili vacibdir indi",
Qazi sakit-sakit danışıb-dindi.

Doktor heyran qaldı ağlına onun,
Ürəyi atlandı, döndərdi boynun.
Üzündə qızartı söylədi haman:
- "Sizin Qarabağda qoyduğunuz can,
Vətən tarixinə gətirdi şərəf,
Xan Şuşam qurtuldu, güldü hər tərəf.
Alın ləkəmizi qanla yudunuz,
Bizim and yerimiz, baş tac oldunuz.
Yeni tarixımə şan-şöhrət yazdız,
Gavurun məzarın tank, topla qazdız.
Əgər razısansa yoldaşım olun,
Bir ömür sizinlə bir olsun yolum.
Yaşım iyirmi beş, subayam hələ
Ruhumda təlatüm, sanki zəlzələ".

Əsgər şax dayandı, dodağı qaçdı,
-"Zarafatdır yəqin?" Üzü gül açdı.
Mən kasıb bir qazi, siz gözəl həkim,
Belə zarafatı mən necə çəkim?".
- "Zarafat etmirəm, qəhrəman əsgər,

Bu mənə şərəfdir istəsən əgər!”.
Ciddi görkəm aldı, sevindi Elcan,
- “Əgər ciddisənsə hazırdır bu can”.
Deyə, Elcan dindi, ürəyi əsdi,
Xəyalən Aytacın kəbnini kəsdı.
Aytacın əlini əlinə aldı,
Bir anlıq əlləri əlində qaldı.

Aytac işdən sonra evinə döndü,
Qapını açanda ürək döyündü.
Anası qapının önünə gəldi,
Aytacın ürəyi döyündü, dəldi.
- “Anacan, mən tapdım ürək yarımı,
Qismət payım olan şirin barımı”.
-“Qızım, elçilərin hansın bəyəndin?
Axır ki, şeytanı sındırdın, yendin”.
- “Yox ana, eşqimi qaziyə verdim,
Onun gözlərindən eşqimi dərdim.
Bir ayağı protez, cəbhədən alıb,
Ağdam torpağından yadigar qalıb.
Vətən torpağında verib şirin can,
O qanla birləşdi can Azərbaycan”.
- “Ay qızım, bu qədər istəyənin var,
Hər biri imkanlı, sapsağlam bir yar”.
- “Mən öz qərarımı vermişəm, ana,
Bir ömür borcluyam, qurbanam sana.
Atası körpəmin fəxri olacaq,
Mənimçün qəhrəman bir ər qalacaq”.

Ana çox danışdı, eşitmədi qız,
Ata otağına yönəldi yalqız.
Ata bir alimdi, ziyalı biri,
Bir övladı vardı, axır dərd-səri.

İstəyirdi Aytac bəxtiyar olsun,
Onun həyatına səadət dolsun.
Qapını döyərək otağa girdi,
Atasını öpdü, ürəyin sərdi.
Ata sona qədər dinlədi, dindi,
Bir az fikirləşdi: - "Öz ürəyindi,
Kimi bəyənirsən onla həyat qur,
Onunla bir ömür "ayaq üstə dur".
Çox əzab çəkmişik gavur əlindən,
Biz də, o tərəfdən, Ağdam elindən.
Hər bir şəhid, qazi bizə ürək- can,
Onlarla fəxr edir can Azərbaycan".

Həkim qız atanın öpdü əlindən,
Xoş sözlər eşitdi onun dilindən.
Varlı övladların rədd etdi Aytac,
Sadə bir qazini eylədi baş tac.
Gözəl toyu oldu, güldü üz-gözü,
Vətənə yayıldı söhbəti-sözü.
Hər bir şəhid, qazi bizə ürək-can,
Onlarla fəxr edir, can Azərbaycan!

---

**-27.09.2020-10.11.2020.*
**-Yeddi min yaralı- təxmini.*
**-08.11.2020.*
**-hay,gavur-erməni*

## Vəzirlə çobanın hekayəsi

Qədim zamanlarda var idi bir şah,
Dilindən düşməzdi, o gözəl Allah.
Xalqına göstərər diqqət, ehtiram,
Ondan çox uzaqdı rəzalət,haram.
Xalqın yanındaydı tez-tez ayağı,
Ən çətin zamanda xalqdı dayağı.
Yamyaşıl otlaqlar, geniş çölləri,
Balıq tutmaq üçün dərin gölləri.
Ölkənin sərhəddi dostluq telləri,
Gözəl, şad xəbərlər gəzir elləri.
Dərin dərrakəli vəziri vardı,
Ahıl yaşındaydı, Allah apardı.
Təyin etmək üçün özünə vəzir,
Şah xeyli axtarır, bir xeyli gəzir.
Nəhayət o, tapır, seçir bir nəfər.
Orta yaşlarında, adı da, Cəfər.
Şah istəyir etsin onu imtahan,
Bir zərər görməsin işindən cahan.
Çağırdı yanına, danışdı-dindi:-
-Həyatda ən murdar, çirkin şey nədi?
Sənə vaxt verirəm, get cavabın tap,
Min kəhər atına, uzaqlara çap.
Yaşlı insanların söhbətin dinlə,
O, Ulu Yaradan olsun səninlə.
Əgər ki, sən tapsan gəl vəzirim ol,
Sinəndə gözəllik yetişsin bol-bol.
Cəfər kürən ata tez süvar oldu,
Xurcunu yeməklə, su ilə doldu.
O,xeyli at sürdü, kənd, şəhər gördü,

Müdrik insanların söhbətin hördü.
Saatlar, həftələr gəlib keçirdi,
Xurcunda yeməkdən yeyib-içirdi.
Xeyli ağsaqqala edərək xitab,
Şahın sualına tapmışdı cavab.
Atı yorulmuşdu, gətirmirdi tab,
Qayıtdı geriyə əlində kitab.
Gördü dağ döşündə nurani çoban,
Qoyun sürüsünü otarır bu an.
Suyu qurtarmışdı, atı da yorğun,
Təmiz yaz səhəri, hava da durğun.
Quşların avazı susdurur canı,
Gəzir oba-oba Azərbaycanı.
Sürərək atını yanına gəldi,
Çoban əyləşmişdi qalxıb düzəldi.
Cəfər salamlaşdı, atından düşüb,
Hörmətlə, izzətlə onla görüşüb.
Çoban tez qoyunu sağıb gətirdi,
Qonağa isti süd həmən yetirdi.
Ağac kölgəsində atın bağladı,
Onunla söhbətə daşıb-sağladı.
Hardan gəldiyini soraraq ondan,
Sanki tanıyırdı Cəfəri çoxdan.
Təbiət qoynunda Cəfərlə çoban,
Xeyli danışdılar şirin, mehriban.
Hardan gəldiyini ərz etdi ona,
Məqsədin, amalın dedi çobana.
Şahın sualını eylədi təkrar:
"O nədir çirkindir, həm də ki, murdar?"
Mən də buna görə çıxmışam yola,
Nə ola tapdığım dürüst, düz ola.

Çoban sual etdi: - Cavabı nədir?
Cəfər ərz eylədi: - Cavab nəcisdir.*
Bir anda çobanın duruxdu gözü,
Təəccüblü ifadə alaraq üzü.
-Bu cavab düz deyil! - söylədi çoban,
-Bəs nədir cavabı? Tez söylə, haman!
-Şərtim var, şərtimə sən əməl etsən,
Düzgün bir cavabla şaha gedərsən.
-Nə şərtin olarsa hazıram ona,
-Desəm əsəbləşmə, hirslənmə mana.
-Daha çox uzatma, şərtini söylə!
-Gəl öz nəcisindən bir az ye, iylə.
-Bu nə sözdür dedin? - ayıb deyilmi?
Yediyim duz-çörək kəsdi dilimi.
Yoxsa bu qılıncla üzərdim başın,
Baxmazdım qocasan, ixtiyar yaşın.
-İstəyirsən yaşat, ya qılınc endir,
Ya da ki, əməl et, şahı sevindir.
Cəfər çox düşündü, fikirə getdi,
Çobanın şərtinə o, əməl etdi.
Nəcisin iylədi, dilinə yaxdı,
Sonra da, sualla çobana baxdı.
Qalxaraq ayağa çoban ağladı,
Onun göz yaşları ürək dağladı.
-Murdar nəcis deyil, tamahdır, tamah!
Get burdan saraya, razı qalar şah.
Tamahdır insanı pis yola dartan,
Tamahın üstündə var olub şeytan.
Bütün cinayətə sövq edən, tamah,
Adəm övladını yenildən, tamah,
Edir həyatını hey param-param,

Tamahdır insana yedirən haram.
Allahın sözünə kim etsə əməl,
Həyatı qaralmaz, dağılmaz təməl.
Əgər vəzir olsan tamahı öldür,
Bütün səltənəti sevindir, güldür..
Çoban danışırdı o, da baxırdı,
Cəfərin gözündən sel-su axırdı.
Eşitdi zərli söz çoban dilindən,
Əyilib hörmətlə öpdü əlindən.
Minərək atına "Çox sağol"-dedi,
Yaşlı bir çobandan qızıl söz yedi.

**-İnsanın*

## Canavar və keçi

Günlərin bir günü ac bir canavar,
Axtardı çox yeri, gəzdi ümidvar.
Tapmadı özünə nə maral, dovşan,
Oldu çox pərişan, ürəyi şan-şan.
Gəldi dağ döşünə, sızladı içi,
Gördü qayalıqda gəzir bir keçi.
Keçi qurdu görcək qaldırdı başın,
Təpiklə döyərək dağın sal daşın.
Zirvədən aşağı baxaraq güldü,
Onun gözlərindən şadlıq süzüldü.
Keçi baxıb -gördü, qurdu pərişan,
Sevinc hisslərini çoxaltdı bu an.
Dedi:-"Ey canavar, nə olub elə?
Gəzirsən meşəni belədən- belə.
Cürətin çatır sa qalx, yanıma gəl,
Parçala, ye məni, şadlıq et, dincəl".
Yenə qəh-qəh çəkdi, oynadı,güldü,
Boz qurdun bu sözdən canı üzüldü.
-"Sən ey axmaq keçi"-deyə, qurd dindi,
Əsəb tellərindən paltar geyindi.
-"İndi, sən uca bir dağ başındasan,
Dağın zirvəsində, sal daşındasan.
Ordan mənə baxıb, salırsan ələ,
Gücünü vermisən saxta bir dilə.
Axır bir gün gələr, enərsən yerə,
Düşərsən zirvədən sən birdən-birə.
Hələ ki, dağdasan, şad-xürrəm yaşa,
Çox çəkməz şahlığı vurarsan başa.
Keçərsən əlimə, udqumun itər,
Sənin də həyatın tez solar, bitər."
Qurd sözün deyərək düzəldi yola,
Başını döndərib baxmadı dala.


25 февраля
Ходжалинский геноцид
Документальный фильм
Правда о Ходжалы
Начало
в 18:00
Вход бесплатный
КИНОТЕАТР «МИР»
(ул. Достоевского, 30)


Кино Азербайджана
23.10.14 в 17.00 Намерение
24.10.14 в 17.00 Возвращение в будущее
Вход свободный
тел. 238-25-24
www. kinotatr-mir.ru
ТОРПАҒА МҮЛКИЈӘТ ҺҮГУГУНА ДАИР


Кино Азербайджана
20.10.14 в 17.00
Аршин Мал Алан
год 1945
страна СССР
слоган-режиссер Николай Лещенко, Рза Тахмасиб
Баку начала XX века. Молодой купец решает жениться и, вопреки закону отцов, пытается увидеть свою будущую спутницу жизни до свадьбы...
21.10.14 в 17.00
Судьба государя
год 2008
режиссер Рамиз Фаталиев, Дильшат Фатхулин
К арабахский правитель конца XVIII — начала XIX века Ибрагим хан, чтобы объединить свое ослабленное экономически от войн и страдающее от феодальной разобщенности владение и защитить его от экспансии со стороны Ирана, принимает мудрое, самоотверженное и трагическое решение. Оно еще раз доказывает, что, к сожалению, «не все могут короли» и что судьба любого правителя — заложница страны, которой данный правитель владеет.
Ибрагим хан, дабы сохранить независимость Карабаха для будущих поколений, соглашается на предложение правителя Ирана Фатали шаха урегулировать вопрос династическим браком. И выдает за него замуж свою дочь, Агабейим ага. Та, будучи влюбленной в Садай бека, карабахского визиря, тем не менее понимает, что и она не вольна в своем выборе и должна принести свое счастье в жертву Отчизне, ее будущему. И подчиняется воле отца и голосу патриотизма.
22.10.14 в 17.00
40-я дверь
год 2009
страна Азербайджан
слоган-режиссер Эльчин Мусаоглу
Отца 14-летнего Рустама убивают в Москве. Чтобы содержать себя и мать, Рустам ищет работу в городе. Но чтобы работать в городе, надо платить дань рэкетирам. Но во всей этой жуткой повседневности у него рождается мечта — быть музыкантом...
Вход свободный тел. 238-25-24
www. kinotatr-mir.ru


ГЛАЗАМИ ЖУРНАЛИСТОВ

## Ermənilərin başımıza gətirdikləri müsibətlər

**Unutma!!!**

1. 1905-1907-ci illərdə "Hay"-lar, Bakıdan başlayaraq, Şuşa, Zəngəzur, İrəvan, Naxçıvan, Ordubad, Cavanşir, Qazax qəzalarında azərbaycanlıların yaşadıqları 200-dən çox yaşayış yerlərini dağıdaraq 10-mindən çox azərbaycanlını qanına qəltan etdilər.

2. 1918-1920-ci illərdə "hay"lar 50-mindən çox azərbaycanlını vəhşicəsinə öldürərək evlərini xarabalığa çevirdilər.

3. 1948-1953-cü illərdə Stalinin əmriylə Qərbi Azərbaycandan 100-mindən çox azərbaycanlını ev-eşiyindən didərgin salıb deportasiya etdilər.

4. 1987-1991-ci illərdə Qərbi Azərbaycandan 300-mindən çox azərbaycanlını  ev-eşiyindən çölə ataraq deportasiya etmiş, xeyli soydaşımızı vəhşicəsinə öldürmüş və şikəst etmişdilər. Dörd mindən çox soydaşımız itgin düşmüşdür.

1988-ci il 27-29 noyabrda Ermənstanın Quqark rayonunda bəzi mənbələrə görə 187 nəfər qətl edilmiş, 12 nəfər diri-diri yandırılmışdı.

5. 25-26  fevral 1992-ci il - Xocalı Soyqrımı: - 613 dinc Xacalı sakini vəhşicəsinə öldürülmüş,1275 əsir aparılmış, 150 nəfər itgin düşmüş, 63-uşaq, 70 qoca, 106 qadın vəhşicəsinə qətlə yetirilmişdir.

Birinci Qarabağ müharibəsində işğal edilmiş şəhər, rayonlarımız:

1)Xankəndi-26.12.1991-ci il.

2)Xocalı-26.02.1992 ci il.

3) Şuşa-08.05.1992 ci il.
4) Laçın-18.05.1992 ci il.
5)Xocavənd-02.10.1992 ci il.
6)Kəlbəcər-03.04.1993 cü il.
7)Ağdərə-07.07.1993 cü il.
8)Ağdam-23.07.93 cü il.
9) Cəbrayıl-23.08.1993-cü il.
10).Fizuli-23.08.1993-cü il.
11)Qubadlı-31.08.1993-cü il.
12) Zəngilan-29.10.1993 cü il.

Qaçqın və məcburi köçgünlərin sayı 1 mil.çatmış, 20%-torpağımız işğal edilmişdi.

**Unutma!**

44-günlük İkinci Vətən müharibəsi: -27 sentyabr 2020-ci il - "Dəmir Yumuruq" əməliyyatı -08 Noyabr 2020-ci il - Xan Şuşanın alınması ilə başa çatdı. 10-Noyabrda "Hay"-lar Kapitulyasiya aktını imzalamağa məcbur oldular, onların 200-illik qudurğanlığına son qoyuldu, alın ləkəmizi, Müzəffər Ali Baş Komandan başda olmaqla Azərbaycanın Müzəffər Ordusu silərək 50-mil.çox dünya azərbaycanlılarının üzünü ağ etdi, 20000-mindən çox (3000-minə qədər 2-ci Vətən müharibəsində) Qarabağ torpağına qanı qarışmış Şəhid qanları sevinib alqış söylədi Azərbaycan xalqına, Azərbaycan Ordusuna!!!

Gözün aydın olsun, ey Azərbaycan,
Qurbanın olmağa hazırdır hər can.
Tülkütək quyruğun qısaraq düşman,
Qaçdı ölkəmizdən, qaçdı diz-dizə,

Ali Baş Komandan, eşq olsun Sizə,
Siz ey Şanlı Ordum, eşq olsun, Sizə!

Kazan-2012-2016-cı illərdə ″Xocalı Faktlarla″ sənədli filmləri yerli əhalinin iştirakıyla Kinoteatr "Mir"-də nümayış etdirildi, Azərbaycan, Tatarstan jurnalistlərinin iştirakıyla. Minlərlə buklet - Xocalı haqqında məlumatlar yerli camaata paylanıldı.

Tədbirin keçirilməsi üçün Tatarstanın ən yüksək Dövlət orqanlarına müraciət edərək icazə almağa müvəffəq oldum.

Tatarstanda Reqional İctimai Təşkilatı Azərbaycan Milli - Mədəni Muxtariyyatın sabiq sədri - Sübhan Abasbəyli, şair-publisist.

# KƏDƏR TARİXİMİZ OLDU, GÜLÜSTAN

*“Arazı ayırdılar,*
*Lil ilə doyurdular.*
*Mən səndən ayrılmazdım,*
*Zülm ilə ayırdılar”*

**1**

Araz nalə çəkdi, hayqırdı o gün,
Göy üzü tutuldu, göz yaşı tökdü.
Quşlar oxumurdu, baxırdı küsgün,
Kəpəzim, Savalan boynunu bükdü.
Ağ vərəq üstündə bölündü bir can,
Bir xalqı ikiyə böldü, ”Gülüstan”

**2**

Müdhiş bir sazişin ağırlığından,
Əyildi belimiz hey zaman-zaman.
İşğalçı, ölkəmdə sürərək dövran,
Söndü Təbrizimin gür çıraqları.
Zeybə-nin suları ağladı bu an,*
Göz yaşı axıtdı, susdu, ”Gülüstan”

**3**

Ağ vərəq üstündə atılan imza,
Əsarət zəncirin qoluma vurdu.
İmzalar zəhər tək axdı boğaza,
Yandırdı içimi, boynumu burdu.
Ayaqlar altında kəsdilər”qurban”
Əsdi qara yellər, dondu “Gülüstan”

**4**

Masalar üstündə bölündü elim,
Bölündü tarixim, bölündü dilim.
Arazdan o tayda qaldı bir əlim,
Qardaşı qardaşdan ayrı saldılar.
Əyildim, əzildim, oldum yarımcan,
Vurdu ürəyimə damğa, ″Gülüstan″

**5**

Sızlayan biz olduq, sevinən onlar,
Gülüş çələnginə bürünən onlar.
Qalib görkəmində öyünən onlar,
Faciəm üstündə qurdular büsat.
Kədər çələnginə bələndi hər yan,
Vətən tariximi böldü, "Gülüstan".

**6**

Qardaş ayrı düşdü, büküldü dizim,
Gözü yaşlı qaldı Bakım, Təbrizim.
O taylı, bu taylı bir Vətən, bizim,
Ayrılıq yamandır, yamandır qardaş.
Başımın üstündə qara bir duman,
Vurdu ürəyimə damğa, ″Gülüstan″

**7**

"Gülüstan" sazişin sanaraq, bədnam,
"Payıma az düşdü" çəkdilər əncam.
Yenə hökümdarlar verdi sərəncam,
Yenə göz yaşına bəzəndi Vətən,
Türkmənçay sazişi yazılan zaman,
İlişib boğazda qaldı, ″Gülüstan″

**8**

İkiyə böləndük, haray ay haray!
Araz sərhəd oldu, ayrıldı o tay.
Boğuldu içimdə bəzəkli saray,
Dirəklər vuruldu sinəmin üstə.
İkiyüz ildən çox yandırır hicran,
Kədər tariximi yazdı, "Gülüstan"

**9**

Həris gözləriylə bir də baxdılar,
Vətən torpağına həmən axdılar.
Bölünmüş ürəyə bayraq taxdılar,
Bir qardaş o üzdə, biri bu üzdə,
Dağların o üzü, əllərim çatan,
Bir xalqı ikiyə böldü, "Gülüstan".

**10**

Hər iki sazişdən keçmişdi gün, ay,
Sürüldü evimə yüz minlərlə "hay"*
Sonrakı illərdə xeyli artdı say,
Xalqımın əfqanı göyə ucaldı.
Axdı su yerinə Vətənimdə qan,
Kədər tariximi yazdı, "Gülüstan".

**11**

İşğalçı ölkələr məqsədə çatdı,
Özgənin torpağın özünə qatdı.
Dartdılar "şikarı" hərə bir yana,
Yaralar vurdular Azərbaycana.
Ayrılıq mahnısı olaraq dastan,
Bir xalqı ikiyə böldü, "Gülüstan".

**12**

Böldülər bir xalqı rahat, ahəstə,
Sürüldü evimə ″hay″dəstə-dəstə.
Yığıldı Vətəndə yadlar üst-üstə,
Gözlərim yaş süzdü hey için-için,
Sancdı ürəyimi hər yerdən ilan,
Kədər tariximiz oldu, ″Gülüstan″.

**13**

Farslarla döyüşü gətirdi zəfər,*
Sonra Türkiyəyə etdilər "səfər"*
Qardaş ölkəmizi aldı qəm-kədər,
Ruslar kömək əlin uzatdı "yan"a,
Ədirnə sülhüylə qaynadı tiyan,*
Töküldü içinə, yandı müsəlman,
Kədər tariximi yazdı, ″Gülüstan″.

**14**

İranla sazişdən keçən hər saat,*
Dəyişdi ″hay″larda şərait, həyat.
Hər yerdən axışdı hey üzü bəri,
Artdı xalqlarımın ağır dərd-səri.
Başlandı Vətəndə oğurluq, talan,
Kədər tariximi yazdı, "Gülüstan".

**15**

Deyirlər, Pyotur etmiş vəsiyyət,*
"Gərək Avropaya çata mülkiyyət.
Sərhəd məkanımız ola Hindistan,
Sünnilər, Şiələr olsunlar düşman.
Tutulan torpaqda yaşasın rus, ″yan″,
Gərək dost olmaya İranla Osman″*

**16**

Yerli hakimlərdən "Çar"a yazhayaz,*
Satqınlıq "yan"lara verir imtiyaz.
"Gülüstan"dan ötən on yeddi il, ay,
Sürüldü yurduma ikiyüz min "hay".
Doldu erməniylə Göyçə, İrəvan,
Zəngəzur, Qarabağ, Şəki, Naxçıvan.
Kədər tariximi yazdı, "Gülüstan"

**17**

"Arxalı köpəklər hürər, qurd basar"
Qudurub saldırar Qartal-a da, Sar,
Qəddarın axırı sonda qan qusar,
Məzlumun naləsin eşidər Allah.
Şərəfin, mənliyin, əxlaqın satan,
Tarixin önündə verər imtahan.

**18**

Min doqquzyüz beşin şaxtalı ayı,
Çatdı dördyüz minə "hay"ların sayı.
Zəngəzur, Naxçıvan, Bakı, Qarabağ,
İrəvan, Gəncəyə çəkdilər min dağ.
Soyqrım törətdi o, mənfur düşman,
Gətirdi qəm-kədər, yaxdı, "Gülüstan".

**19**

Keçdi faciədən, keçdi on üç il,*
Yenə hiylə torun hörərək qatil,
Erməni qüvvələr Bakıya doldu,
Xalqımın bağçası saraldı, soldu.
Qanlı qırğınlara verərək fərman,
Yurdumu atəşə tutdu Şaumyan,
Kədər tariximi yazdı, "Gülüstan"

**20**

Martın otuzuydu, hava da təmiz,*
Hiylədən xəbərsiz saf millətimiz.
Atəşə tutulduq, qan döndü çaya,
Lenin də şimaldan söz verir ″hay″a,
Güllələndi əlli mindən çox insan,
Qana qəltan olan, can Azərbaycan!

**21**

Şərqdə göy gurladı, bir ulduz doğdu,
Düşmənin ürəyin, nəfəsin boğdu.
Müstəqil bayrağım ucaldı göyə,
Xoş xəbər yayıldı şəhərə, köyə.
Vətən torpaqlarım oldu çıraqban,
Tarixlər bəzədi, Can Azərbaycan!

**22**

Xəbis qonşulardan həzər ay həzər,
Kin-küdrət içini dolaşar, gəzər.
Gözləri pislikdən çələng toxuyar,
Atdığı hər addım çirkab qoxuyar.
Saxlar qəzəbini, kinini pünhan,
Allahım, uzaq et belə qonşudan.

**23**

Şaumyan, Bakıdan Leninə yazır,
Müstəqil ölkəmə quyular qazır.
"Aman, Türkiyəni qoymayın gələ,
Bütün bənd-bərəni keçirdin ələ."
Lenin, Gürcüstana vəd verir dolu,*
Təki, Türkiyənin kəsilsin yolu.

**24**

Hər bir təhlükəni alaraq gözə,
Osmanlı ordusu yetişdi bizə.
Milli qüvvələrlə İslam ordusu,
Bakı azad oldu, keçdi qorxusu.
Gəncədən Bakıya köçdü hökumət,
Təhlükə sovuşdu, sevindi ümmət.

**25**

Ucaldı bayrağım, gur işıq saçdı,
Keçdiyi yollarda qızıl gül açdı.
Sülhün, həmrəyliyin ardınca qaçdı.
Hər bir əməlindən ucaldı Vətən,
Yolunda özünü verərək qurban.
Neçə Türk əsgəri, neçə qəhrəman.

**26**

Düşmənin nəfəsin kəsirdi hiddət,
Nifrətlə süzürdü gözündə şiddət,
Yanıb tökülürdü görəndə vəhdət.
Müstəqil Vətənim, deşirdi gözün,
Süzülür içindən, sözündən böhtan,
Bizə qəm gətirdi, kədər, "Gülüstan".

**27**

Artır Vətənimdə hər an təhlükə,
Çətinlik önündə dayanır ölkə.
Yağı düşmənlərlə qalır üz-üzə,
Tuşlanır üzümə, köksümə nizə.
İrəvan "hədiyyə" edildi, aman!
"Gavur"u evimə saldı, "Gülüstan".

**28**

Zəngəzurla Göyçə, Dilican getdi,
Şərur-Dərələyəz gözümdən itdi.
Riyakar qonşular arzuya yetdi,
Bir-bir Oğuz yurdum ″hay″a verildi.
Mülküm qarət oldu, olmadı həyan,
Bizə qəm gətirdi, kədər, “Gülüstan”.

**29**

Vətənim bələndi al qızıl qana.
Yaralar vuruldu Azərbaycana.
Alova büründü hey Odlar yurdu,
“Gavur”lar tələsik xaniman qurdu.
Dostları şadlandı, oldu pasiban,
Kaş ki, olmayaydı əzəl, ″Gülüstan″.

**30**

Qərbi Azərbaycan verildi, bitdi.
Bir müddət itlərin hürüşü itdi.
Qorbaçov orada gəldi ″mərkəz″ə,
Tülkülər yenidən girdilər gözə.
“Qarabağ da bizim ″etdilər″ “üsyan”
Bizə qəm gətirdi, kədər, ″Gülüstan″.

**31**

Moskva önündə ağladı zar-zar,
Vurdu baş-gözünə, etdi ahuzar.
Şərait yaratdı, gözlərin yumdu,
Riyakar erməni üstümə cumdu.
İkiyüz əlli min qovuldu yurddan,
Bizləri möhnətə saldı, ″Gülüstan″.

**32**

Moskva işindən qovuldu Öndər,*
Aldı caynağına bizi qəm-kədər.
Yağı düşmənlərin açıldı yolu,
Yağdı başımıza daş-kəsək, dolu.
Xocalım dağıldı, edildi viran,
Bizə qəm gətirdi, kədər, "Gülüstan".

**33**

Sonra da verildi Laçınım, Şuşam,
Xocavənd, Kəlbəcər, Xocalım, Ağdam.
Cəbrayıl, Fizulim, Qubadlım yandı,
Gözəl Zəngilanım qana boyandı.
Tamam Qarabağım olaraq biryan,
Faciəm sən oldun, sən ey "Gülüstan".

**34**

Otuz il Qarabağ edildi işğal,
Otuz il utandıq, biz olduq bihal.
Ağır məğlubiyyət etdi bizi lal,
İnlədi Sübhan da, əlində Quran,
Kədər tariximiz oldu, "Gülüstan".

**35**

Budur, qoç igidlər qalxdı ayağa,
Ordumuz oxşayır sanki bir dağa.
İt kimi qovuldu o, mənfur dığa.
Qardaşlar verdilər çiyin-çiyinə,
Qovuşdu Qarabağ, qırıldı zindan,
Vətən xilas oldu vətənsiz "yan"dan.

**36**

Alnımızda qara olan bir ləkə,
Əydi qəddimizi hey zaman-zaman.
Ağır qəm yükünü biz şəkə-çəkə,
Güldü üzümüzə hiyləgər düşman.
İnşəallah, qurtuldu, o Cənnətməkan,
Gözlərimiz aydın, can Azərbaycan!

**37**

Çaldı Qarabağda Ordumuz zəfər,
Qalan torpaqlara edəcək səfər.
Zəngəzur, Göyçəmdə qalmayıb təpər,
Şərur-Dərələyəz, Dilican betər.
Ələsgərin qəbri olubdur yeksan,
Bir xalqı ikiyə böldü, "Gülüstan".

**38**

Ey kədər tarixim, Gülüstan kəndi!
Böldün sən xalqımı, əyildi qəddi.
Çəkdin ürəyimə tikandan səddi.
Qardaşı, qardaşa qoyaraq həsrət,
Nə vaxt yollarımdan itəcək tikan?
Əzdi bir milləti, böldü "Gülüstan"

**39**

Təbriz ağı dedi, göz yaşı tökdü,
Quzey, Quzey deyib diz üstə çökdü.
O tay da, bu tay da boynunu bükdü,
Bakı qan ağladı, haray, ay haray!
Sən ey ayrılığa qol qoyan, utan!
Kədər tariximiz oldu, "Gülüstan".

**40**

Arazı ayırdılar, o gündən bəri,
Vurdular sinəmə iti xəncəri.
İkiyüz illərdir, gözlərimdə yaş,
Əllərim uzanıb, o taya qardaş!
Hanı qarşılayan, əlimdən tutan?!
Oyan, aç gözünü, bitsin ”Gülüstan!”
Güneyli, quzeylı, can Azərvaycan!

**S.Abasbəyli**

---

**-Gülüstan kəndində çay*
**-”hay”-erməni*
** 1804-1813 Rus-İran müharibəsi.*
**Osmanlı döv. adlanırdı.*
**1826-1829-Rus-Türk müh.*
** 1813-Gülüstan sazişi*
** 1-ci Pyotur*
**-Osmanlı döv.*
**Çar-İmperator*
**1905-1906*
**-1918 ci il.*
**-Gürcüstana muxtariyyat vəd olunur.*
**-Heydər Əliyev.*




*KAZAN*



*Kazan 2016-cı il. Diaspor sədri S.Əhədzadə.*
*Şəhidlərimizin xatirəsinə həsr olunmuş tədbir.*

# Diaspor

*Poema*

*(Diaspor Yunan sözü olub "səpələnmək" deməkdir Rusiya azərbaycanlıları Federal Milli-mədəni Muxtariyyatı (AzərRos) Moskva Reqional İctimai Təşkilatı Azərbaycan Milli-mədəni Muxtariyyatı Respublika Tatarstan (RİT AMMM RT)*

## 1-ci hissə

Şaxtalı- boranlı bir qış axşamı,
Kiçik bir kafedə yeyərək şamı,
Üz tutdu vağzala, əlində çanta,
Xəyal aləminə hey bata-bata.
Ayağı altında xışıldayır qar,
Sanki qar ağlayır ağrıdan zar-zar.
Maşınlar şütüyür, ötür yanından,
Ağrını- acını çəkir canından.
Girərək vağzala, beynində duman,
Üzürdü qəlbini ağır yük yaman.
Yola salmaq üçün gəldi üç nəfər,
Çətin, ağır idi getdiyi səfər.
Vağzalın daxili çox tünlük, dolu,
Tələsir insanlar keçməyə yolu.
Biri sağa gedir, o biri sola,
Təkərli sumkalar axışır yola.
Uzun bir fit verdi yetişən qatar,
Nəriltili səslə indi ha çatar.
"Kazan-Moskva" sözü yazılmış öndə.

Sərnişinlər durmuş bir azca gendə.
Ağır addımlarla qatar dayandı,
Dəmir təkərləri "alışıb yandı"
Dostlarla görüşüb qalxdı vaqona,
Uçdu xəyalları Azərbaycana.
"Kupe" yə girəndə verərək salam,
Dilindən süzüldü şirin söz, kəlam.
Artıq vaxt keçirdi, uzandı hərə,
Gedirdi hər biri böyük şəhərə.
Uzandı yerinə fikirli, dalğın,
Uzatdı gəzməkdən"şişmiş"ayağın.
Artıq eşidilmir bir kimsə səsi,
Həzin-həzin gəlir təkər naləsi.
Əlin çarpazladı başının altda,
Saldı son günləri birbəbir yada.
Gözlərini yumdu, düşündü, gördü,
Gələn günlərinin cədvəlin hördü...
Kazan şəhərində on min vətəndaş,*
Yaşayır, işləyir, hamıya qardaş.
Vətən Azərbaycan, həm Tatarstan,
Gecəsi, gündüzü qan-tərə batan.
Vətəndən uzağa köçünü atmış,
Çox insan burada murada çatmış.
Birləşmiş təşkilat yaratmış, qurmuş,
Diaspor, ayağı üstündə durmuş.*
O, Diaspor sədri olandan bəri,*
Artdı ürəyinin ağır dərd- səri.
Mirzə Kazım bəylə, Nəriman bəyə,
Xatirə lövhəsin ucaltdı göyə.*
Kazan şəhərində əkdilər ağac,1913.
Ayreport yolunu bəzədi, o tac.(410)

Bir uşaq evinə oldu himayə,*
“Hər bir köməkliyi”-göstərək,deyə.
Milli kinomuza açılaraq yol,
Verildi Kazanda kinomuz bol-bol.*
Tələbə, gənclərə daha çox qayğı,
Onlar Diaspora göstərir sayğı.
Milli bayramımız hər il keçrilir,
Onlara həmişə önəm verilir.*
“Xocalı günü”ndə verdiyimiz qan,
Xəstə insanlara bəxş eləyir can.*
“Xocalı Faktlarla” açığa çıxdı*
Baxanın gözündən damcılar axdı.
Kinoteatr “Mir” Kazanda mərkəz,
Bizim faciəyə baxırdı hər kəs.
İyirminci əsrin günahsız qanı,
Dəhşətə gətirdi baxan insanı.
Donmuş körpələrin baxan gözləri,
Köməyə çağrırdı sanki düzləri.
Əzilmiş cəsədlər, qalaq-qalaq can,
Baxanlar ağlayır, tökürdü al-qan.
Əyləşib salonda müxtəlif millət,
Baxırdl kinoya, üzlərdə dəhşət.
Görür Xocalını, gözlər ağlayır,
“Xocalı”Kazanda ürək dağlayır.
Faciə haqqında minlərlə buklet,*
Gələn qonaqlara paylanır bilet.
İki min on üçdə ard-arda dörd il,
Nümayiş olundu, susdu qara dil.
Kazanda, Bakıda saytlar yazdı,
Mavi ekranlar da, ölkəyə yaydı.
Ermənilər görür, kənardan baxır,

Onların üzündən kin-küdrət axır.
Bizim diaspordan şikayət edir,
Çirkaba bulaşır, əyri yol gedir.
Atılan böhtanlar çatmadı dada,
Gizli iş görməyi saldılar yada.

---

**-Xocalı Soyqrımı haqqında məlumat*

**- "Xocalı Faktlarla" sənədli filmi Rusiyada ilk dəfə 2013-cü ildə Kazanda işıq üzü gördü. Kinotetr "Mir"də,yerli camaatın iştirakı ilə göstərildi. Bakıda saytlar yazdı, ekranlar göstərdi. Kinonun verilməsinə icazə almaq üçün Diaspor sədri Tatarstanın Prezident aparatına qədər getdi və nəhayət icazə verildi.*

**-2011-ci ildən "Xocalı Soyqrım"günündə "qan ver, kömək et"aksiyasına başlamışıq .*

**-Diaspor, Kazanda yarandığı gündən milli tədbirlərimiz mütəmadı keçirilir.*

**-Tatarstanda 20-mindən çox azərbaycanlı yaşayır, onlardan 10-mini Rus vətəndaşıdır.*

**-2013-də Kazanda ilk dəfə tarixi ,milli kinolarımıza start verildi.*

**-Kazanda atasız-anasız bir uşaq evi Azərbaycan Diasporu tərəf.himayəyə alındı.2013.*

** -1913,1915 ci illərdə, N.Nərimanov küçəsində və Kazan Federal Universitetində abidə qoyuldu.*

**- 1912-dekab.*

**-1988- "Oğuz" təşkilatı-Kazan.*






*Kazan-9 may-2016*

**2-ci hissə**

Qatar öz yolunu tutub düz gedir,
Sanki laylay çalır, züm-zümə edir.
Dəmir təkərləri sökürdü yolu,
Dəmirdən çətrinə tökürdü dolu.
Diaspor rəhbəri, xəyala dalır,
Qatar hey şütüyür yola iz salır.
Ötən günlərini o, salır yada,
Getməmiş əməyi havaya, bada...
Bir gün "Vesti-az"-dan zəng gəldi ona,*
Jurnalist danışdı hey yana- yana.
-"Siz hara baxırsız?,"hay" konsert verir.
"Qarabağ"-adıyla tədbir keçirir.
Yəqin ki, şəhərdə "afişa" da var,
Niyə quduzlaşıb Kazanda onlar?
Diaspor rəhbəri çaşdı xəbərdən,
Beyni dumanlandı, islandı tərdən.
-"Niyə bu tədbirdən onda xəbər yox?
Sanki ürəyinə sancıldı bir ox.
-"Yaxşı Araz qardaş, araşdırram mən,
Məlumata görə sizlərə əhsən."
Təşəkkür edərək dəstəyi asdı,
Şirin ovqatına istiot qatdı.
Ürək kədərləndi, dəyişdi əhval,
İdarə heyyəti yığıldı dərhal.
Kinoteatrlar yoxlandı bir-bir,
Nə "afişa" vardı, nə də ki, tədbir.
Etdilər şəhəri hey ələk-vələk,

Axtarıldı hər yer, hər”deşik-dələk”
Axır ki, tədbirdən məlumat gəldi,
Diaspor üzvləri öyrənib bildi.
“Ak-Bars”adlı bankın vardı bir zalı,
Gözdən uzaq idi, metronun dalı.
“Qarabağ” adıyla təşkil edilmiş,
Bir xeyli ermənu tədbirə gəlmiş.
Etiraz ərizəsi dərhal yazıldı,
“Hay”-ın tədbirinin qəbri qazıldı.
“Qarabağ”konserti daynıb-durdu,
Gavurlar yenə də ağlaşma qurdu.
Rəsmi orqanlarla olan bir söhbət,
Necə var yazılır, olun həmsöhbət.
Diaspora sədri otağa girdi,
“Hay”-ın tədbirini stola sərdi.
O, dedi: - “Qarabağ həm Azərbaycan,
Əzəl torpağımız, ayrılmaz bir can.
Rus imperiyasl “hay”ı gətirdi,
Vətən torpağına düşmən yetirdi.
İrandan köçərək gəldilər bizə,*
Bir ləkə oldular ürəyimizə.
“Hay”ları əvvəlcə evlərə aldıq,
Sonra Vətənimdə Vətənsiz qaldıq.
İrəvan, Zəngəzur edildi peşkaş,*
Sonra da Qarabağ edildi işğal.”
Dedi:-Kino verdiz, “Xocalı Faktla”,
Erməniyə dedin, ′′ağlayıb çatla”
Müxbirlər çağırdın, tədbirdən yazdı,

Burda erməniyə bir quyu qazdı.*
Erməni lobbisi hay- həşir salır,
Tatar dövlətindən narazı qalır.
Onlar da istəyir çıxsınlar əvəz,
Əritsin içindən, o yığılmış kəz.
Dedi: ″Qan yaddaşım yanan Xocalım,
Bir milyon qaçqınım, ağrılı, acım.
Mənim millətimdir yurdundan olan,
Köçgün adı ilə saralıb-solan.
Bunların baisi erməni millət,
Xalqımız onlardan çox çəkib zillət″.
- “Xeyriyyə işlərin məlumdur bizə”
Yenə də başladı, o adam sözə:
-“Qələbə günündə dördyüz veteran,
Xidmətində durdu “Davıl” restoran.*
İlk dəfə Kazanda siz bunu etdiz,
Yaşlı insanlara köməyə yetdiz.
Xocalı günləri verdiyiniz qan,*
Yüzlərlə insana bəxş eləyir can.
Kazan şəhərində “Yaşıllıq günü”,*
Mən buna deyərdim, yaxşılıq günü.
Sizin əməyiniz yenə çox oldu,
Ayreport yolları ağacla doldu.
Lakin, elə iş var ondan uzaq ol,
Sakitliyi sevək, sevinək bol-bol.
Erməni tədbirin qarşısın aldıq,
Onları yenə də biz incık saldıq”.
O, rəsmi adamla görüşüb çıxdı,

Yenə də su kimi səmtinə axdı...
Olub keçənləri o, hey düşünür,
Hərdən sevinirdi, hərdən üşünür.
Qatar, Kazan-Moskva, sürət qatarı,
Şütüyür, qaçırdı, mənzilə sarı,
Dəmir təkərlərin tak-tok-tuk səsi,
Sanki nəgmə çalır hər zənguləsi.
Qatar şütüyərək gedir irəli,
Onunsa beynində simlər gərəli.
Bilmir nə olacaq bu işin sonu,
Üzürdü son aylar çox fikir onu.
Diaspora işi ağırdan-ağır,
Tez- tez üzərinə daş-kəsək yağır.
Kazan şəhərində otuz beş millət,*
Vahid bir mərkəzdə toplanmış, əlbət.
Adı "Dom Drujba" dostluq mərkəzi,
Qoynuna alıbdır gələn hər kəsi.
Yeddi mərtəbəli böyük bir bina,
Bütün şəraitlər verilmiş ona.
Otuz beç Diaspor yerləşmiş orda,
Onlar dəstək olur millətə, yurda.
İdman, konsert zalı, qaynayır həyat,
Ayrıca otaqlar, şərait qat- qat.
"Bazar günü" məktəb, körpələr elin,
Şagirdlər öyrənir öz ana dilin.
Komunal xərclərin ödəyir dövlət,
Milli bayramlar da alaraq vüsət,
Müstəqillik günü, "Novruz" gələndə,

Xalqımız sevinib deyib-güləndə,
Milli musiqimiz yüksəlir zilə,
"Ay kos-kosa düşür dillərdən-dilə.

---

**-Бakıdan "Vesti-az"2014.*

**-1913,1928-Gülüstan,Türkmənçay ..*

**-1918-il İrəvan bağışlandı,*

*-1920-ci ildə Zəngəzur.*

**-Sayt-"Tatarİnform"-Kazan,*

*Vest-az Bakı*

**-Kazanda Gülhüseyn Nəcəfova məxsus "Davıl"restoranında 400-dən yuxarı Böyük Vətən maharibəsi iştirakçılarına (1941-45), 9-may günü böyük ziyafət verildi və ard-arda bir neşə il davam etdi.(Allah Gülhüseyini rəhmət eləsin)*

**-2013-2017-Xocalı günləri "Qan ver, kömək et"aksıyası.*

**- Kazanda ilk dəfə 35-diaspor içində Azərbaycan diasporu 2013-cü ildə 410 ağac əkdilər.*

**-Kazanda çox millət yaşayır,amma 35-millətin Diaspor təşkilatı var ki, onlar da vahid mərkəz,"Dom Drujba" binasında yerləşmişlər və hər iki diaspora bir otaq ayrılıb.*

## 3-cü hissə

Gözləri saata bir anlıq axdı,
Saatın əqrəbi on birə baxdı.
Qatar hey çapırdı poladdan atı,
Beləcə keçirdi onun həyatı.
Meşə zolaqları bürünmüş qara,
Qolları əyilmiş, çəkilmiş dara.
Səmanı ağartmış, sanki bir çıraq,
Sərilmiş torpağa hey varaq-varaq.
Qaçmışdı yuxusu, üzürdü fikir,
Xəyal aləmini gah sökür, tikir.
On beş gün olardı bir dəvət aldı,
O dəvət onları bəlaya saldı.
Moskva dəvət edir bir qurultaya,*
Tədbir səbəb oldu böyük bir haya.
Bakıdan dostları "yox" deyib durdu,
Diaspor rəhbəri baş-beyin yordu.
Kazan şəhərindən "get", dedi ona,
Muxtariyyat qaldı hey yana-yana.*
Dövlət adamıyla edərək söhbət,*
Ona narazılıq bildirdi, əlbət:
-"Bizlər ictimai, milli təşkilat,
Təzyiq göstərirsiz bizlərə qat-qat.
Diaspor işinə qarışırsız siz,
Çıxılmaz duruma çox düşürük biz."
Dərhal yumuşaldı, dəyişdi sözü,
Çox mehriban oldu kədərli gözü.
-"Mən xahış edirəm, gedin siz ora,
Biz də çox düşürük çətinə, dara,

Mərkəz tələb edir, bizlik bir iş yox,
Həmin qurultayla maraqlanır çox.”
-“Çalışaram gedim”-deyərək çıxdı,
Onun ürəyindən qəm- kədər axdı.
“Çalışaram”-dedi, ürəyi ,amma,
“Getmə”-söyləyirdi, yaş dama-dama.
İdarə heyəti toplandı yenə,
Bir çox ziyalılar çıxdılar önə.
Məsləhət-məşvərət bir xeyli sürdü,
Hərə öz fikrini qızılla hördü.
Bir “get”- söylədi, o biri “getmə”,
Bəzi ziyalılar: -“Hələ tələsmə!”.
İdarə heyəti çıxartdı qərar:
-“Bitərəf biz qalaq”-etdilər israr.
Diaspor rəhbəri susaraq qaldı,
Yenə düşünərək xəyala daldı.
Sıxırdı beynini iki məngənə,
Yeyirdi içini sanki bir gənə.
Ağır addımlarla o, çölə çıxdı.
Ürəkdən sızıltı, min kədər axdı...
İndi qatardadır, gedir mərkəzə,
Dəmir relisləri hey əzə-əzə.
Düşünür sabahı, üzündə kədər,
Kaş ki, zəhmətini verməyə hədər.
Gedir Moskvaya, bilirdi, ancaq,
Bu işin sonluğu xeyir olacaq.
Birdən üzü güldü, sevindi ürək,
Sanki kürəyinə söykəndi kürək.
Baxdı saatına, gecədən keçir,
Qatar hey şığıyır, zülməti biçir.

Diaspor rəhbəri gözünü yumdu,
Şirin bir röyaya, yuxuya cumdu.
Qatarın təkəri oxuyur tuk-tak,
Şair, gecə keçir, gəl biz də yataq.

---

**-20-yanvar 2015, Rusiya azərbaycanlıları Federal Milli-Mədəni Muxtariyyatı-АзерРосс*

**-Bəzi məsələlərə görə ad, vəzifə gizli saxlanılır və bəzi adlar şərtidir.*

**-Reqional İctimai Təşkilatı Azərbaycan Milli-Mədəni Muxtariyyatı Respublika Tatarstan (Rusiya)*



***Bakı-2016-Rusiya Diaspor sədrləri Dünya azərbaycanlılarının 4-cü Qurultayı ərəfəsində***

## 4-cü hissə

Səhər saat yeddi fit verdi qatar,
Kazan vağzalına indi ha çatar.*
Sərnişinlər qalxır, hazırlıq görür,
Kimisi çay içir, kimi saç hörür.
Olduğu kupedə gedir ər-arvad,
Onları vağzalda gözləyir övlad.
Diaspor rəhbəri danışdı bu an:
-“Vətənim Kazandır, həm Azərbaycan”
Danışdı işindən, adın söylədi,
Yerini-yurdunu bəyan eylədi.
Bir az şirin-şirin söhbət etdilər,
Axır ki, vağzala gəlib yetdilər.
Çantasın alaraq çiynindən asdı,
Beton döşəməyə ayağın basdı.
Əsrarəngiz Moskva, Kazan vağzalı,
Qışın “oğlan çağı”, hava şaxtalı,
Sərt şaxta qılıncın çəkmiş qınından,
Zərli qığılcımlar çıxır canından.
Qurultayın vaxtı tam on bir tamam,
Bütün Rusiyadan çağrılmış adam.
Kimlər gələcəkdi, kimlər isə yox,
Şaxtalı qış günü, narazılıq çox.
Vağzalda insanlar qaynayıb-daşır,
Az qala bir-birin üstünə aşır.
Birdən o, “büdrədi”, yıxıldı yerə,
Tutmaq istədilər, əl atdı hərə.
Beton bir dirəyə dəyərək başı,
“Az qala əzəcək metaldan daşı”
Yıxıldığı yerdən birtəhər qalxdı,
Onun gözlərindən qığılcım axdı.
Gələrək “Medpunkt”a içəri girdi,
Dövlət vəsiqəsin açıb göstərdi.

Dedi:-“Yıxılmışam, üz-gözüm yanır,
Dünya gözlərimdə sanki fırlanır.
Bura, qurultaya Kazandan gəldim,
Ayağım büdrədi, yerə sərildim”...
“Medpunkt”un daxili geniş, tərtəmiz,
İki tibb bacısı, üzü ağbəniz.
Həkim əyləşmişdi, yaşca çox cavan,
Yazdı ünvanını kitaba haman.
Adın, soyadını soruşdu, baxdı,
Gözü gözlərinə əriyib axdı.
Ayırdılar ona ayrı bir otaq,
Dərhal hazırlandı, açıldı yataq.
Uzandı yerinə, iynə vurdular,
İki tibb bacısı öndə durdular.
-“Narahat olmayın, keçib-gedəcək,
Vurulmuş iynələr kömək edəcək.”
Deyə, gülümsəyib ona baxdılar,
Dəniz gözlərini gözə taxdılar.
O da növbəsində təşəkkür etdi,
Dilindən onlara xoş sözlər yetdi.
Qızlar sağollaşıb çölə çıxdılar,
Bir daha boylanıb geri baxdılar.
Sakit bir otaqda indi tək qaldı,
Dərin düşüncələr qoynuna aldı.
Quruıtay söhbəti ürəkdən çıxdı,
Xoş duyğu qəlbinə göyərib axdı.
Səfirliyi yığdı, zəng etdi haman,*
Vağzalda olduğun edərək bəyan.
Söhbəti bitirdi, sevinclə doldu,
Bir azca keçmişdi ona zəng oldu.
-“Salam olsun ay sədr, hardasan indi?”
Deyə, qadın sordu, bir az deyindi.
-“Vaxt keçir, başlanır indi qurultay,
Sənin gəlməyin də hey çəkir il, ay”.

-"Salam, Afət xanım, bir işə düşdüm,*
Qatardan düşəndə birdən sürüşdüm.
Vağzalda'Medpunkt"da iynə vurdular,
Həkimlər sağ olsun, kömək durdular".
-"Yaxşı ki, ayağın sınmayıb", dedi,
Əsəb tellərindən bir libas geydi.
Telefon kəsildi, əsəbdən susdu,
İçindən zəhəri üstünə qusdu.
İnanmadı ona o, gözəl afət,
Olmadı sözündə heç bir şəfaət.
Bu zaman bir səda Kazandan gəldi,
Telefonun zəngi qəlbini dəldi.
-"Hörmətli diaspor, indi hardasan?
Yəqin ki, sən indi qurultaydasan!
-"Salam,Vladimirov,"Medpunkt"da indi,
Vağzalda yıxıldım, başım əzildı"
O, çox məyus oldu, təəssüf etdi,
Şirin sözlər ilə köməyə yetdi.
Yenə də Kazandan, müxtəlif yerdən,
Dövlət adamları zəng etdi birdən.
İnanan inandı, inanmayan çox,
Atılır hər yerdən üzərinə ox.
"Yəqin ki, yıxılıb o, bilə- bilə,
Düşünüb, işlədib belə bir hiylə"
Belə söz-söhbətlər bəzəndi, gəzdi,
Kazan diasporu şayədən bezdi.

---

**-Moskvada Kazan vağzalı*
**-Azərbaycan səfirliyi-Moskva*
**-ad şərtidir,müəyyən səbəbə görə*

**5-ci hissə**

Tökülür səmadan qar lopa-lopa,
Yığılır torpağa hey topa-topa.
Gözün pəncərədən kənara çəkdi,
Ürəyin şumladı, təzədən əkdi.
Arada həkim qız gəlib yoxlayır,
Neştər kipriyiylə onu oxlayır.
Tez-tez sual verir, gülür gözləri,
Ürəyə sancılır şirin sözləri.
-"Yəqin ki, evlisən?-deyə, o, sordu,
Yurdunu soruşdu, yaxında durdu.
Bakını eşitdi, ürəyi dindi,
Bal- şəkər sözlərdən libas geyindi.
-"Bakını görməkçün ürəyim axır,
Yatanda da, gözüm Xəzərə baxır".
-"Gəl qonaq bizlərə, Azərbaycana".
Telefon nömrəsin verərək ona.
Doktora elə bil "dünya verildi",
Ox tək kiprikləri tamam gərildi.
Sevinə- sevinə otaqdan çıxdı,
Təbəssümlü üzlə geriyə baxdı.
Otağın qapısı döyüldü bu an,
Qapıdan içəri girdi bir cavan.
Gəlib salam verdi, keyfini sordu,
Sonra diasporun yanında durdu.
-"Səfirlik göndərdi buraya bizi,
Maşın da, bayırda gözləyir sizi"
Diaspor rəhbəri təşəkkür etdi,
Saatına baxdı, "Siz gedin"-dedi,
-"Mən özüm bir azdan gələrəm ora,

Özüm öz işimi çəkməyim dara".
Səfirlik işçisi geriyə döndü,
Diaspor darıxdı, qəlbi döyündü.
Uzandığı yerdən ayağa qalxdı,
Paltarın geyindi, güzgüyə baxdı.
Artıq on bir idi qolunda saat,
Qurultaya giriş, bitmiş qeydiyyat.*
Həkimdən getməyə icazə aldı,
Qara çantasını çiyninə saldı.
Onlara üz tutdu, təşəkkür etdi,
Ayrı- ayrılıqda: -"Sağolun"-dedi.
Doktor əl uzatdı, gözünə baxdı,
İsti əllərindən məhəbbət axdı.
-"Sizə zəng edəcəm"-ürəyi dindi,
Dilindən, sözündən gülab çiləndi.
Çıxaraq bayıra, səs-küylü şəhər,
Bir taksı axtardı, tapdı birtəhər.
Əyləşib taksiyə, ünvanı deyir,
Baxaraq şəhərə mahnı dinləyir.
Böyük Moskvanın tər-təmiz yolu,
Yolların sağ-solu maşınla dolu.
Hərə öz işinin dalınca gedir,
Kimisi gəzişir, kimi zəng edir.
Şəhərə baxırdı səssiz, sanki lal,
Birdən sürücüyə verdi bir sual:
-"Yuri Dolqoruki kim olub, görən?
Onun barəsində nə bilirsən sən?"
Sürücü dinmədi, buladı başın,
Alın düyünləndi, çataraq qaşın.
-"Moskvanı ilk dəfə o adam tikdi,*
Dünya tarixinə öz adın əkdi".

Deyə, sürücüyə tarix danışdı,
Maraqlı söhbətdən sürücü çaşdı.
-"Sizlərdə hardandır belə məlumat,
Rusiya tarixin bilirsiz qat-qat.
-"Tarixçiyəm"-dedi, çevirdi üzün,
Yenə pəncərəyə dikərək gözün.
Budur ha, göründü üçrəngli bayraq,
Sanki gözlərinə görsəndi bir dağ.
Düşərək taksidən, ödədi pulun,
Aldı əllərinə səfirlik yolun.
Əvvəlcə zəng etdi, gəldiyin dedi,
Bir azdan həmin gənc aşağı endi.*
Gözətçi önündən ötərək həmən,
Üzünə gülürdü çiçəkli çəmən.
Keçdilər içəri, işıqlı bir zal,
Pəncərə ağ tüllü, üstləri xal-xal.
Böyük bir masada on-onbeş adam,
Töküldü üstünə şirin söz cam-cam.
Əl verib görüşdü, tutdular əhval,
Üzləri gərgindi, gözləri bihal...
Sonra da şəhərdə dostların gördü,
Məsləhət-məşvərət bir xeyli sürdü.
"Millətlər evi"ndə gedir qurultay,
Gözlərdə suallar yığılıb tay-tay.
"Milli jurnalistlər, gözlərində yaş,
Onlar qovulmuşdu oradan birbaş"*
Deyirlər, "çağrılıb tədbirə "OMON"
"Verilsin hay-küyə yerindəcə son"
Belə söz-söhbətlər bəzənib gəzdi,
Kimlərsə sevindi, kimisə əzdi.
Masa ətrafında bir neçə alim,

Söhbət xırdalayır hey dilim-dilim.
Bir gün Moskvanın qonağı oldu,
Sonra Kazan üçün darıxdı, doldu.
Dostlarla görüşüb qayıtdı geri,
Unutdu bir azca ağır dərd- səri.
Gələrək Kazana ürəyi rahat,
Öz axarı ilə gedirdi həyat.

---

**-saat 11-də Qurultaya giriş bağlanır.*
**-1147-ci ildə.*
**-"Medpunkt"-a, yanna gələn gənc.*
**-Moskvada bir çox dostların söylədiklərindən.*

**6-cı hissə**

Günlərin birində gəldi bir xəbər,
Çağırdılar onu, danışdı rəhbər:*
Dedi:-"Prezidentə gəlib şikayət,*
Moskva diasporu göstərir şiddət.
Yazır ki:"Kazandan olmadı dəstək,*
Aldatdı bizləri, gəlmədi, gerçək.
Yalandan yıxıldı, "əzildim"-dedi,
Vağzalda ağ xalat əyninə geydi.
Onu diaspordan çıxardın, silin,
Susdurun Kazanda danışan dilin".
Oradan Kazana göstəriş verir,
Yazıb tələb edir, hiddət göstərir.
Əgər ki, istəyi olsaydı xahiş,
Səninçün Kazanda açılardı iş.
Bəxtin gətirdi ki, tələb, qərəzkar,
Özün yuxarıdan aparır, aşkar"...
Diaspora sədri çıxaraq çölə,
Gözləyirdi onu çox işlər hələ.
Ürəkdə min fikir maşına mindi,
Əlində telefon səsləndi, dindi.
-"Alo, eşidirəm, kimdir zəng edən?"
O başdan ağladı bir qız ürəkdən.
Diaspora sədri çaşaraq qaldı,
Onun gözlərini qəm-kədər aldı.
-"Ay xanım, danışın, nə olub sizə?
Kimlər acı verib ürəyinizə?"

-"Müəllim,Leyladır sizə zəng edən",
Diaspor titrədi, eşitdi birdən.
Oxucum, burada haşiyə çıxaq,
On beş gün əvvələ çağlayıb axaq.
Yanına gəlmişdi bir qız bir oğlan,
Üzlərində kədər, gözlərində qan.
Dedi: - Tələbəyik, "iki" almışıq,
Gözümüz ağlayır, kursda qalmışıq.
Kömək əlinizi uzadın bizə,
Dönməyək üz qara ailəmizə".*
Xahiş ərizəsini yazıb getdilər,
Gedəndə bir daha rica etdilər.
Diaspor, Rektorun yanında oldu,
Dekanla görüşdü, tanışlar buldu.
Rektor söz vermədi - "baxarıq", dedi,
Çox ciddi gözləri bir ümid verdi...
Leyla sakitləşdi, hıçqırıq kəsdi,
Diaspor sədrinin ürəyi əsdi.
"Tələbələr yəqin qovulub, eyvah",
Köksü alovlandı, çəkərək bir ,ah.
-"Müəllim, sağ olun,bərpa olunduq,
Uçan quşlar kimi budağa qonduq.
Bizə dayaq olduz, şad etdiz bizi,
Şad etdiz həm də ailəmizi".
Diaspora sədri bir dünya qurdu,
Əyilmiş kürəyi düzəldi, durdu.
Sevinc göz yaşları yanağa axdı,
Zehni işıqlandı, ildırım çaxdı.

-"Çox şükür Allaha şad xəbər oldu,
Narahat ürəyim sevinclə doldu.
Ürəkdən təbriklər, oxuyun hər an,
Sizləri gözləyir can Azərbaycan!"

---

**-Kazan dövlətinin birləşmiş diaspora mərkəzi*
**-Tatarstan Prezidentinə*
**-Moskvada keçirilən qurultaya,*
**-Kazan Tibb Universitetinin 3-kurs.*

## 7-ci hissə

### *SON*

Günlər, aylar ötdü, gəldi mart ayı,
Soldu sərt şaxtalar, getdi hay-hayı.
Günəşin istisi sərt buzu yaxdı,
Sulanmış şaxta-buz Volqaya axdı.
Qurultaydan artıq ötmüşdü gün, ay,
Narazılıq artdı, dəyişdi olay.
Xeyli ziyalılar "ağlayır zar-zar",
Yeni qurultaya verdilər qərar.*
Ən ucqar yerləri nəzərdə tutub,
Hər yerə yollandı bildiriş, məktub.
Kazan diasporu alaraq dəvət,
Ürəklər döyündü, artdı hərarət.
İki min on beşin o yanvar ayı,
Həmin qurultayın çıxmışdı hayı.
Seşilmiş rəhbərlik suçlanır yaman,
Bəzi məlumatlar gəzdi bu zaman...
Yeni qurultaya verilmiş rəvac,
Təzə namizədə qoysunlar bir tac.
Dövlət adamları tutmuşdu xəbər,
Özlərin aparır sanki bixəbər.
"Yeni qurultaya gedəcəkmi, O?,*
Moskvada iştirak edəcəkmi, O?.*
Diaspora sədri anlayır, görür,
O, çıxış yolunu qəlbində hörür.

“Əgər ki, tədbirə getməsə, inan,
Diaspordan küsər bir xeyli insan.
Yox,əgər gedərsə onda, hökumət,
Ondan uzaqlaşar, itəcək hörmət.
“Federal slujba” gözləyir məqam,
Arada vururdu üzünə, eyham.
İdarə heyəti toplandı, əlbət
Xeyli sualları etdi məşvərət.
“Bitərəf biz qalaq”-verildi qərar.
“Yoxsa işlərimiz burda olar “dar”
Diaspor rəhbəri qalmışdı naçar,
Yenə çətin işə olmuşdu düçar.
İki məngənədə sıxılır ürək,
“İndi düz qərarı biz necə verək?”
İki min on beşin dördü mart ayı,
Çoxaldı mərkəzdən zənglərin sayı.
Son zəng gecə yarı durmadan çaldı,
Diaspor rəhbəri telefonu aldı.
Hörmətli bir yoldaş danışdı, dindi,
Gah xahiş eylədi, gah da deyindi.
-“Martın altısında qurultaya gəl!,
Bu vacib bir işdə dostluqda yüksəl!”
Dedi: - “Çox arzumdur orada olam,
Mən də, sizlər ilə qaynayıb-daşam.
Əgər özüm gəlsəm hər şey qarışar,
Sakitləşən külək qaynayıb daşar.
İdarə heyəti çıxardıb qərar:
“Bitərəf biz qalaq”-gəl etmə israr!.

Amma, bir plan var, alınsa əgər,
Bu işlər düzələr, həmdə ki, digər.
Bir nömrə verirəm, onunla danış,
Mərkəzə gəlməyə razı sal, çalış.*
Mənimlə söhbətin qoy gizli qalsın,
O insan sizlərdən göstəriş alsın.
Mənim əvəzimdə o, gələr ora,
Mənim də işlərim çəkilməz dara"
Nömrəni alaraq, o gözəl insan,
- "İndi həll edərəm"-söylədi haman.
Rahat nəfəs aldı, danışıq bitdi,
Xoş ovqat ürəyə qaçaraq yetdi.
Bilirdi ki, indi zəng gələr ona,
Baxırdı yanında yatan telefona.
Saatı izləyir, gözləyir, durur,
Özü-özlüyündə yeni iş qurur.
Bu zaman telefon durmadan çaldı,
O, dərhal telefonu əlinə aldı.
İdarə heyəti, dostlardan biri,
Bir xeyli danışdı o, üzü bəri.
- "Etiraz etməsən ora mən gedim,
Kazan diasporun mən təmsil edim"
Ürəyi sevindi, gözləri güldü,
İçindən sıxıntı yerə töküldü.
- "Yaxşı,sabah beşdə vağzala sən gəl,
Hər şey yaxşı olar, olmaz bir əngəl.
Yol xərcin, biletin, vaxtın da, bol-bol,
Gedərsən Moskvaya, sənə yaxşı yol!

Mart ayının beşi, saat beş tamam,
Üz tutdu vağzala, dilində salam.
Gördü ki, dayanıb gözləyir qardaş,*
Başının üstündə alışır qaş-daş.*
Vağzalın hər yeri güllü çıraqban,
Mərmər döşəmələr parlayır əlvan.
Gəlib salamlaşdı, keyfini sordu,
Gülümsər gözlərlə yanında durdu.
Göndəriş, həm bilet, pul-para verdi,
Ceyhun İsayevlə vağzala girdi.
Görüşüb ayrıldı, gedəndə birdən,
Səslədi arxadan, döndü anidən.
-"Ona mən tapşırdım, sənə zəng etsin,*
Kazandan mərkəzə İsayev getsin."
Deyib, gülümsədi, arxaya döndü,
Bir az getmişdi ki, geriyə çöndü.
Ceyhun çox heyrətlə ona baxırdı,
Onun gözlərindən təəccüb axırdı.
Dedi: - "Heç darıxma, olma narahat,
Hələ davam edir maraqlı həyat".
Dönərək geriyə, ondan ayrıldı,
Diaspor rəhbəri yola sarıldı.
Vağzaldan evinə gəldi piyada,
Ötən günlərini o, saldı yada.
Əyləşib çay içdi, qələmə baxdı,
Ağ kağız üstünə misralar axdı.
Yazdığı poema üzünə güldü,
İçindən qəm-qüssə əriyib öldü.

Bu zaman telefon hay-həşir saldı,
Diaspor rəhbəri dayanıb qaldı.
-“Görən kimdir axı bu gecə çağı”,
Yorğun gözlərinin böyüdü ağı.
Alaraq telefonu nömrəyə baxdı,
Gözləri şimşək tək alışıb çaxdı.
-“Субхан Ахадзаде, это я-Светлана”
“Medpunkt”dakı doktor düşdü yadına,
“Xəstə” olan vaxtı çatmış dadına.
Keyfini soruşdu, iş-gücün sordu,
Kazandan mərkəzə bir körpü qurdu.*

***SON***

---

**Qeyd:**

*Tatarstan Respublikasında (Rusiya) Reqional İctimai Təşkilatı Azərbaycan Milli-mədəni Muxtariyyatı, 35 -Milli Diasporlar içərisində 2015-ci ildə 2-ci yerə çıxdı, öz iş səviyyəsinə görə. (birinci yerə Rus diasporu)*

**-1-ci, yanvar qurultayında iştirak etmədiyi üçün*
**-Moskvada*
**-Mərkəz-Moskva*
**- Diaspor üzvü-İsayev Ceyhun*
**-çil-çıraq*
**-Müəyyən səbəbə görə adını yazmadım.*
**-Moskvaya*



*Azərbaycan -Masallı ,Ə.İsmayılov adına Yeyənkənd kənd tam orta məktəbində şagirdlərlə görüş.*



*Kazanda Nəriman Nərimanovun Xatirə Lövhəsi (Şəkildə Nurəddin Əhədov xatirə lövhəsinin tozunu alan zaman)*

# Təltifləri


15 ЛЕТ
БЛАГОДАРСТВЕННОЕ
ПИСЬМО
АХАДЗАДЕ СУБХАН КАМРАН ОГЛЫ


БЛАГОДАРСТВЕННОЕ
ПИСЬМО


БЛАГОДАРСТВЕННОЕ
ПИСЬМО


РЦК МЗ РТ
БЛАГОДАРСТВЕННОЕ
ПИСЬМО


БЛАГОДАРСТВЕННОЕ
ПИСЬМО
Администрации Вахитовского и Приволжского
районов Исполнительного комитета города Казани


БЛАГОДАРНОСТЬ
Государственный историко-архитектурный
и художественный музей-заповедник
"Казанский Кремль"
ВЫРАЖАЕТ БЛАГОДАРНОСТЬ
председателю РОО "Азербайджанская
НКА РТ "Азербайджан"
Ахадзаде Субхан Камран оглы
за активное участие в проведении
Фестиваля «Мы любим Кремль!»,
посвящённого Международному
Дню защиты детей

## MÜNDƏRİCAT

Vətən sevdalı şair ....................3
Payız duyğulu şair ....................8
Qalib bayrağım ....................14
Şanlı ordumuz ....................16
Ey şanlı ordum ....................18
Gəl Masallıya ....................20
Şəhid ....................22
Gözləyir axı ....................23
Vəsf eyləyərdim ....................24
Ey insan ....................26
Necəsən ....................28
Gecələr ....................29
Varmı ....................30
Dünya ....................31
Payız ....................32
Bir də, o yerlərə… ....................33
İnsan gözləri ....................34
Dünya, səndə nəyim qaldı ....................35
Payız ....................39
Kişilər olmasa… ....................41
Ünvanına yetməyən məktub ....................43
Həyat arzusu ....................44
"Ölüm yuxusu" ....................45
Ata bilmirəm ....................47
Hacı Məmmədəli ....................48
Danışan illər ....................49
Oğlum Elçinin ad günü ....................50
"Of"- deməz ....................51
Çəkic, mismar, daşam mən ....................52
Xəyala dönən illər ....................54
Ey dərd ....................55
Bayramınız mübarək, dostlar ....................56
Külək ....................57
Bənövşə ....................59
Əziz qadınlar ....................61

Şair, o yerləri gəzdin bir zaman ....62
Həyat, niyə qəddar oldun ....65
Ad günün mübarək, Zeynəbim ....66
O gün gələr, inşəallah ....67
Kimdir günahkar ....69
Ad günün mübarək ....70
Bir gecədə 60-il ....71
Dünyamız zəhərli ilandı, oğul! ....74
Eşit bizi, ya Xuda ....76
Nə ola dünyada od-alov sönə ....77
Köçən gəncliyim ....78
Yeni tarix yazdı müzəffər Ordum ....79
Dünya ....80
Ay dədə ....82
Lüt-üryandı ölkəmiz ....84
Unutma, ey dost ....85
Anan deyilmi ....86
Yolunu azma ....87
Məzun ....88
Zuvandlı ....89
Sirli dost ....90
Qismətin olsun ....94
Gözüm ağladı ....96
İnsanlıq tükənir, solur, ay Dədə ....98
İradə Aytel ....100
Sən də bir mələksən ....101

**HEKAYƏTLƏR**

Tacir və dəvə ....108
Ölüm hökmü və Loğmanın zəhəri ....111
O, onu seçdi ....116
Vəzirlə çobanın hekayəsi ....121
Canavar və keçi ....125
Ermənilərin başımıza gətirdikləri müsibətlər ....127
Kədər tariximiz oldu, Gülüstan ....130
Diaspor ....143
**Təltifləri ....173**

**Sübhan Abasbəyli**

# Danışan illər

İMZA
NƏŞRLƏR EVİ

| | |
|---|---|
| **Direktor:** | **Səbuhi Aslan** |
| **Dizayner:** | **Nigar Sadıqova** |
| **Texniki redaktor:** | **Hüseyn Məmmədov** |

Çapa imzalanmışdır: 29.04.2025
Ofset çapı. Əla növ kağız
Tiraj: 100
Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə
Telefon: (012) 538-18-87, (050) 263-16-16
email: imza_nesrler_evi@mail.ru